QARABAĞ AZƏRBAYCANDIR!



## AZADLIĞIN HEYDƏR ƏLİYEV YOLU

8

Səs

№ 031 (6714) 18 fevral 2023-cü il. Qiyməti 60 qəpik

## MÜNXEN KONFRANSI: Azərbaycan üçün təşəbbüslər platforması

2



İLHAM ƏLİYEV: "Azərbaycan Avropa İttifaqının etibarlı tərəfdaşıdır"

# Ermənilərin saxta və şaxta şikayəti

7



*Tarix heç vaxt unudulmur, faciəli hadisələr isə yaddaşlarda əbədi qalır, ta ki bədəli ödənilməyənə kimi, cinayətkarlar cəzalandırılmayana kimi. İş tamam olan insanın içinə bir rahatlıq, bir dinclik gəlir, amma vurulan yara zaman-zaman yada düşür. Xocalı faciəsi, qətliamı, soyqırımı kimi…*

### Əsrin fəlakətini yaşayan Türkiyədən duyğulu anlar



13

### Milli Məclisin plenar iclası keçirilib: hansı qanun layihələri qəbul edildi?



5

### Yüksək məhsul almaq üçün torpağa hansı gübrə verilməlidir?



11

## Böyük abadlıq-quruculuq meydanı - AĞDAM



6

## DİQQƏT: Azərbaycanda evlər bahalaşacaq?

*"Azərbaycan əmlak bazarında hazırda qardaş ölkədə baş vermiş təbii fəlakətdən (zəlzələdən) dolayı nisbi sakitlik hökm sürür. Bu, həm qardaş ölkədə baş vermiş zəlzələnin olduqca dağıdıcı olması və zəlzələ zamanı həyatını itirmiş bacı- qardaşlarımızın bizə təsirindəndir".*



16

# MÜNXEN KONFRANSI: Azərbaycan üçün təşəbbüslər platforması

## *İLHAM ƏLİYEV: "Azərbaycan Avropa İttifaqının etibarlı tərəfdaşıdır"*






Hər ilin fevral ayında Almaniya Federativ Respublikasının ərazisinə görə ən böyük regionu olan Bavariya bölgəsinin inzibati mərkəzi Münxen şəhərində təşkil edilən Münxen Təhlükəsizlik Konfransı (MTK) beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirə olunduğu dünyanın ən aparıcı forumu sayılır, qlobal səviyyədə ən vacib və aktual problemlər üzrə diplomatik təşəbbüslər üçün platforma rolunu oynayır.

*"Bu gün real faktordur ki, Cənub Qaz Dəhlizi ideyası Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi və xarici siyasət strategiyası sayəsində reallaşıb"*






Konfransın missiyası dövlət və hökumət başçıları, siyasətçilər, parlamentarilər, araşdırma mərkəzləri, özəl sektor, QHT-lər, media və beynəlxalq təhlükəsizlik sahəsində ixtisaslaşan təşkilat və mütəxəssislər arasında davamlı və qeyri-rəsmi dialoq yaratmaqla etimad qurmaq, qlobal və regional problemlərin, münaqişələrin həllinə töhfə verməkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də 59-cu Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasında səfər edib. Fevralın 17-də Prezident İlham Əliyev Münxendə Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru Mixael Harms ilə görüşü olub. Dövlətimizin başçısı görüş zamanı Azərbaycanda bərpa olunan enerjinin inkişafı məqsədilə həyata keçirilən layihələri, Avropa İttifaqı ilə ölkəmiz arasında enerji sahəsində tərəfdaşlığı qeyd edib, Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin iştirakı ilə ötən il Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində imzalanmış strateji sənədin əhəmiyyətini bildirib.



Dövlət başçısı ölkəmizin həm Xəzər dənizinin Azərbaycan sektorunda, həm də quruda böyük həcmdə bərpaolunan enerji potensialına malik olduğunu qeyd edib, Avropa İttifaqı ilə tərəfdaşlıq çərçivəsində bu layihənin inkişafı istiqamətində tədbirlərin həyata keçirildiyini deyib və alman şirkətləri ilə də bu sahədə əməkdaşlıq üçün böyük imkanların olduğunu vurğulayıb.

Prezident İlham Əliyev bu xüsusda Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış dördtərəfli memorandumunun əhəmiyyətini qeyd edib. Dövlət başçısı Azərbaycanın Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu və Avropa İttifaqı ilə ölkəmiz arasında sıx münasibətlərin mövcudluğunu bildirib. Prezident İlham Əliyev Almaniya şirkətlərini Azərbaycana səfərə dəvət edib və ölkəmizdə azad ticarət zonasının yaradılması istiqamətində atılan addımlar, logistika və nəqliyyat imkanlarının artması barədə məlumat verən dövlətimizin başçısı alman şirkətlərinin Azərbaycanda fəaliyyəti üçün geniş imkanlar var. Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə görüşü olub. Görüşdə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsi üzrə danışıqlar və Brüssel sülh prosesi ətrafında müzakirələr aparılıb. Prezident İlham Əliyev Azərbaycanın Brüssel sülh prosesini dəstəklədiyini qeyd edib.

Şarl Mişel Avropa İttifaqının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasında, sülh müqaviləsi üzrə danışıqlarda, Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin olunmasında səylərini bundan sonra da davam etdirəcəyini bildirib. Söhbət zamanı, həmçinin Avropa İttifaqının Ermənistandakı missiyasının fəaliyyəti barədə fikir mübadiləsi aparılıb.

Ardı Səh. 3

# MÜNXEN KONFRANSI: Azərbaycan üçün təşəbbüslər platforması

## İLHAM ƏLİYEV: "Azərbaycan Avropa İttifaqının etibarlı tərəfdaşıdır"







*İlham Əliyev: "Azərbaycan bundan sonra da Avropanın enerji təhlükəsizliyində vacib rol oynamağa davam edəcək"*

Əvvəli-Səh-2

Dünən Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsrail Dövlətinin müdafiə naziri Yoav Qallant və Avropa Ravvinləri Konfransının prezidenti Pinhas Qoldşmit ilə də görüşü olub.

### ÖTƏN İL AZƏRBAYCANIN QAZ TƏCHİZATININ ARTIRILMASI AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİNƏ VERİLƏN TÖHFƏ İDİ

Bu fakt inkaredilməzdir ki, enerji təhlükəsizliyi olmadan milli təhlükəsizliyin təmin edilməsi çətinləşir. Enerji təhlükəsizliyi hər bir dövlətin milli təhlükəsizliyinin ayrılmaz bir hissəsidir. Bu gün real faktordur ki, Cənub Qaz Dəhlizi ideyası Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi və xarici siyasət strategiyası sayəsində reallaşıb. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən bu layihə əvvəldən gələcək üçün nəzərdə tutulmuşdu, layihənin ilk günlərindən potensialın genişləndirilməsi barədə artıq danışılırdı. Bu baxımdan Cənub Qaz Dəhlizi Prezident İlham Əliyevin uzaqgörən siyasətinin təzahürüdür. Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasında dövlətimizin başçısı: "Dünya dəyişib, enerji təhlükəsizliyi məsələlərinin hər bir ölkə üçün əhəmiyyəti daha da artır və adətən görüşlərdə söylədiyimiz kimi enerji təhlükəsizliyi həqiqətən milli təhlükəsizlik məsələsidir".

### ORTA VƏ UZUNMÜDDƏTLİ PERSPEKTİVDƏKİ HƏDƏF CƏNUB QAZ DƏHLİZİNİN GENİŞLƏNDİRİLMƏSİDİR

Dünən Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Boru arzuları: Gələcəyə uyğun enerji təhlükəsizliyi" mövzusunda dəyirmi masa keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfədən danışan dövlətimizin başçısı bildirdi ki, ötən il Azərbaycanın qaz təchizatının artırılması qısamüddətli perspektivdə Avropanın enerji təhlükəsizliyinə verilən töhfə idi. Orta və uzunmüddətli perspektivdəki hədəf isə Azərbaycan tərəfindən irəli sürülən Cənub Qaz Dəhlizinin genişləndirilməsidir. Prezident İlham Əliyev qeyd etdi ki, 2027-ci ilədək TAP-la qaz nəqlinin indiki 11 milyard kubmetrdən 20 milyard kubmetrə, TANAP-la isə 16 milyard kubmetrdən 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur.

Ötən il Bakıda Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin iştirakı ilə Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalandığını xatırladan dövlətimizin başçısı vurğuladı ki, enerji sahəsində Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı bu sənədə uyğun olaraq bundan sonra da genişlənəcək.

Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıqda bərpaolunan enerjinin xüsusi rolunun olduğunu deyən Prezident İlham Əliyev ölkəmizin son dövrlər bu sahədə bir sıra vacib addımlar atdığını diqqətə çatdırdı. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanda bu istiqamətdə artıq bir sıra layihələr həyata keçirilir, həmçinin 25 qiqavatadək enerji istehsalı ilə bağlı müxtəlif sənədlər imzalanıb. Bu isə Azərbaycanın istehsal etdiyi yaşıl enerjinin daxili istehlakla yanaşı, Avropaya ixrac edilməsinə də imkan verəcək ki, bu da orta və uzunmüddətli perspektivdə Avropanın enerji təhlükəsizliyinə töhfə olacaq. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan bundan sonra da Avropanın enerji təhlükəsizliyində vacib rol oynamağa davam edəcək.

Tədbirdə digər çıxış edənlər Azərbaycanın ötən dövrdə, xüsusilə keçən il Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəni xüsusi vurğuladılar, Azərbaycanla bu sahədə əməkdaşlığı yüksək qiymətləndirdilər və onun davamlı olacağına əminliklərini bildirdilər.

### AZƏRBAYCAN BUNDAN SONRA DA AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ VACİB ROL OYNAMAĞA DAVAM EDƏCƏK

Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Boru arzuları: Gələcəyə uyğun enerji təhlükəsizliyi" mövzusunda dəyirmi masada Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıqda bərpaolunan enerjinin xüsusi rolunun olduğunu deyən Prezident İlham Əliyev ölkəmizin son dövrlər bu sahədə bir sıra vacib addımlar atdığını diqqətə çatdırıb.Dövlət başçısı qeyd edib ki, Azərbaycanda bu istiqamətdə artıq bir sıra layihələr həyata keçirilir, həmçinin 25 qiqavatadək enerji istehsalı ilə bağlı müxtəlif sənədlər imzalanıb. Bu isə Azərbaycanın istehsal etdiyi yaşıl enerjinin daxili istehlakla yanaşı, Avropaya ixrac edilməsinə də imkan verəcək ki, bu da orta və uzunmüddətli perspektivdə Avropanın enerji təhlükəsizliyinə töhfə olacaq.Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan bundan sonra da Avropanın enerji təhlükəsizliyində vacib rol oynamağa davam edəcək. Bəli, bu gün uğurlu enerji siyasəti reallaşdıran Azərbaycan Avropanın enerji bazarında mühüm faktora çevrilib. Bu gün Azərbaycanın nəhəng enerji potensialı ölkəmizin daha neçə onilliklər ərzində də Avropanın enerji təminatında həlledici rol oynamasına imkan yaradacaq.

Qeyd edək ki, Konfrans çərçivəsində Azərbaycan Prezidentinin bir sıra dövlət və hökumət başçıları, beynəlxalq təşkilat rəhbərləri, rəsmi şəxslər, şirkət rəhbərləri ilə ikitərəfli görüşləri nəzərdə tutulur.

**RƏFİQƏ KAMALQIZI**

## İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Müşahidə Şurasının iclası keçirilib



Fevralın 17-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə keçirilən iclasın gündəliyində Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixində "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və 2022-ci il 16 noyabr tarixli "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamlarından Nazirlər Kabinetinə həvalə olunan tapşırıqların icrası, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin fəaliyyət planının əsas istiqamətləri və nəticələri, təşkilati-struktur məsələləri geniş müzakirə olunub.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının təqdimatı dinlənilib.

İclasın yekununda "Strategiyada və Böyük Qayıdışa dair I Dövlət Proqramında" nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi ilə bağlı İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə müvafiq tapşırıqlar verilib.

# Sosial rifah və ədalət prinsipi

***Dövlətimizin başçısının rəhbərliyi ilə aparılan sistemli islahatlar, bölgələrin inkişafına yönəldilən sosial-iqtisadi proqramlar insanların həyatında, firavanlığının və rifahının yüksəlməsində əhəmiyyətli rol oynayır. Vətəndaşlara qayğı, onun maddi, mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması istiqamətində aparılan işlər Azərbaycan dövlətinin prioritetlərindəndir.***



İlham Əliyev: "Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik"

Ölkə başçısının siyasi iradəsinə uyğun olaraq ölkədə həyata keçirilən siyasətin mərkəzində məhz insan amili, vətəndaşların mənafeyi dayanır ki, bu istiqamətində Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanan sərəncamlar insanların sosial həyatının yaxşılaşdırılmasına və vətəndaş məmnunluğunun artırılmasına yönəldilib. Minimum əməkhaqqının, pensiyaların, tələbələrin təqaüdlərinin artırılması və digər ödənişlər dövlət başçısı tərəfindən təqdim edilən böyük sosial paketin tərkib hissəsidir. Həyata keçirilən islahatlar sosialyönümlülük və humanizm prinsiplərinə əsaslanır. Yoxsulluq səviyyəsinin azaldılması, çoxsaylı iş yerlərinin açılması və s. Azərbaycanın dinamik inkişaf edən bir ölkə olduğunə əsaslanır. Sosial rifah və ədalət prinsipi dövlət siyasətinin strateji xəttini təşkil edir. Sosial ədalət dedikdə əlbəttə ki, cəmiyyətdə insanlar arasındakı ədalətli münasibətlər nəzərdə tutulur. Azərbaycanda mövcud olan sosial ədalət dünya üçün modeldirSosial ədalət cəmiyyətin əsas göstəricisidir. Hansı cəmiyyətdə sosial ədalət mövcudursa, o cəmiyyətdə insan amilinə diqqət və qayğı da böyükdür. Əlbəttə ki, sivil bir dünyada yaşamış olsaq da, sosial ədalət prinsipinə bir çox ölkələrdə əməl olunmur və dünyanın bir qismi üçün bu əlçatmazdır. Demokratik dəyərlərə malik, mütərəqqi dövlətlərdə buna təsadüf olunur. Hüquq bərabərliyinin və insan hüquqlarının pozulması cəmiyyətdə xoşagəlməz hallarla insanları üz-üzə qoymuş olur.





## ƏDALƏTLİ VƏ TƏHLÜKƏSİZ DÜNYA

20 Fevral dünya Sosial Ədalət Gününü qeyd edir. Milyonlarla insanların qeyd etdiyi bu gün BMT-nin Baş Məclisi tərəfindən dünya ictimaiyyətinin yoxsullüqla mübarizə işində səylərini artırmaq və hər kəs üçün iş yerləri, gender bərabərliyi və insan hüquqlarına hörmətə nail olmaq məqsədi ilə yaradılıb. Müasir dünya cəmiyyətlər daxilində və cəmiyyətlərarası həmrəylik, harmoniya və bərabər imkanlar aşılamaq üçün yoxsulluq, ayrı-seçkilik və işsizliklə məşğul olmağın əhəmiyyətini dərk edir. Daha sabit, ədalətli və təhlükəsiz dünya qurmaqda sosial ədalətin vacibliyi əsas məsələlərdəndir. Hər kəs üçün sosial ədalətə nail olmaq naminə BMT-nin əsas məqsədi inkişaf və insan ləyaqətini yaymaqdır.

Əlbəttə ki, dünyanın bir parçası olan Azərbaycanda da sosial Ədalət günü qeyd olunur. Müasir dünyamızda Azərbaycan dünyanın çağırışlarına yüksək səviyyədə cavab verir. Sosial ədalətə nail olmaqda ölkəmizdə həyata keçirilən islahatları qeyd etməliyik. Həyatımızın bütün sifераların əhatə edən islahatlar öz nəticəsin verib və bu davamlıdır. Dünya birliyinə sürətlə inteqrasiya olunaraq demokratik inkişaf yolunda atdığı ardıcıl addımlarla regionda böyük nüfuz sahibinə çevrilən Azərbaycanın qısa zamanda əldə etdiyi böyük nailiyyətlər, ilk növbədə hər bir vətəndaşın mənafeyinə xidmət edən təkmil sosial-iqtisadi inkişaf strategiyasına əsaslanır. Ölkəmizin maliyyə imkanlarının güclənməsi regionların sosial-iqtisadi inkişafına, eləcə də insanların sosial rifah halının daha da yaxşılaşdırılmasına səbəb olub.

Təbii ki, Azərbaycanda mövcud olan sosial ədalət dünya üçün bir modeldir. Sosial ədalətin təmin edilməsi prioritet məsələrdən biridir. Ölkəmizdə sosial ədalətin təminatı istiqamətində ciddi addımlar atılıb. Azərbaycanda dövlətin iqtisadi siyasətinin sosial yönümlü olması, Prezident İlham Əliyevin ölkə vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsinə göstərdiyi diqqət, insan amilinə verilən yüksək dəyər sosial ədalətdən qaynaqlanır. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi sosial-iqtisadi siyasət ölkəmizin davamlı inkişafının təmin olunmasında həlledici rol oynayır. Uğurla həyata keçirilən dövlət proqramları və bu sahədə görülən tədbirlər qeyri-neft sektorunun davamlı inkişafına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına təkan verib. Bu günə qədər reallaşan dövlət proqramları böyük uğurla icra olunub. Görülən işlər əhalinin rifahının yüksəlməsinə, yeni iş yerlərinin açılmasına və s. səbəb olub. Sözsüz ki, dövlət proqramlarının icrası məşğulluğun təmin olunması istiqamətində atılan vacib addımlardan biridir. Regionlarda yaradılan biznes mühiti, kənd təsərrüfatı və sənayenin inkişafı üçün infrastruktur artıq öz bəhrəsini verməkdədir. Əhalinin sosial müdafiəsi sahəsində bir sıra uğurlu layihələr icra edilir. Azərbaycan Respublikası Prezidentinin məlum Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də bu sahəyə böyük önəm verilir. İnsanların sosial statusundan və yaşadığı ərazidən asılı olmayaraq iqtisadi imkanlara çıxışı bərabər və ədalətli olmalıdır. Belə ki, inkişafdan hər bir vətəndaş bəhrələnməlidir. Sosial təminat sisteminin daha effektiv və ədalətli olması hesabına aşağı gəlirli və yoxsulluğa həssas təbəqənin, əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların sosial müdafiəsi və sosial təminatı gücləndiriləlidir. Dövlətin 2030-cu ilədək həyata keçirəcəyi iqtisadi layihələrin gətirəcəyi faydalardan ölkə vətəndaşlarının bəhrələnməsi milli prioritetlərin əsas məqsədidir.Ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində əlbəttə ki, insan amili daynır, onların maraqları dayanır. Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Təbii ki, bütün bunlar planlı, Azərbaycan dövlətinin sosial iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq həyata keçirilir. Dövlət başçısının uğurlu sosial siyasəti respublika əhalisinin rifah halının yaxşılaşdırılması, sosial cəhətdən həssas əhali qruplarına dövlət qayğısının artırılması istiqamətində kompleks tədbirlərin ildən-ilə güclənməsinə, geniş əhali kateqoriyalarını əhatə edən etibarlı sosial müdafiə sisteminin formalaşdırılmasına imkan yaradıb.

Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması, aztəminatlı ailələrin, müharibə veteranlarının, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb. "Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik", - deyən Azərbaycan Prezidentin imzaladığı Fərman və Sərəncamlarla müavinət və təqaüdlərin, bir sıra təşkilatlarda çalışanların əməkhaqlarını artırılması həyata keçirilən islahatların davamı, dövlət başçısını sözü ilə əməlinin vəhdətdə oluğunun təzahürüdür. Dövlət başçısının yeni Fərman və Sərəncamları ilə son beş ildə ölkəmizdə artıq dördüncü sosial islahat paketi reallaşdırılaraq əməkhaqqı, müavinət və təqaüdlərin növbəti dəfə artırılması təmin olunur. Yeni Sərəncamla dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışanların aylıq vəzifə maaşlarının 2023-cü il yanvarın 1-dən orta hesabla 15 faiz artırılıb.

## "NÖVBƏDƏ DURAN BU KATEQORİYADAN OLAN İNSANLARIN HAMISINA DÖVLƏT TƏRƏFİNDƏN MƏNZİLLƏR VERİLƏCƏK"

Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bütün cəmiyyəti, o cümlədən müharibə əlilləri və şəhid ailələrini əhatə edir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən birini məhz müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həlli, hər cür qayğı ilə əhatə olunması təşkil edir. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə də böyük həssaslıqla yanaşılır, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin sosial rifahının yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin 2018-ci il 19 aprel tarixli Fərmanı ilə şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi həssas qrupların sosial müdafiəsinin gücləndirilməsində mühüm addımlardan biri idi. 2019-cu il 28 yanvar tarixli Fərman isə, birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu. Beləliklə, hər iki Fərmanın icrasının nəticəsi olaraq, 12268 şəhidin vərəsələrinə ödəmə verilməsi üçün dövlət büdcəsindən 135 milyon manat vəsait ayrıldı. Cənab Prezidentin göstərişi ilə şəhid ailələri mənzillə təmin olunur. Azərbaycan Prezidentinin 2014-cü il 20 iyun tarixli Sərəncamı müharibə əlilləri və şəhid ailələrinin dövlət tərəfindən mənzillə təminatı işlərinin sürətlənməsinə şərait yaradıb. "Keçən il bu istiqamətdə də önəmli addımlar atılmışdır, bu kateqoriyadan olan 1500 ailəyə dövlət tərəfindən mənzillər verildi" - deyən Cənab Prezident bildirib ki, 2021-ci ildə isə 3 min mənzil verildi: "Bu il də ən azı 1500 mənzil veriləcək. Beləliklə, hələ növbədə duran bu kateqoriyadan olan insanların hamısına dövlət tərəfindən mənzillər veriləcək. Məlumat üçün deyə bilərəm ki, bu günə qədər 13 min ailə bu imkanlardan faydalanıb. Bu da müharibə yaşamış ölkələr arasında, belə deməl mümkündürsə, bir bizim yeniliyimizdir. Çünki bir çox ölkələrdə belə praktika yoxdur. Biz buna nə üçün edirik? Çünki bu, o ailələr qarşısında bizim mənəvi borcumuzdur və bu borcu imkan daxilində yerinə yetirməyə çalışırıq".

## "BİZ ÖZ SAĞLAMLIĞINI İTİRMİŞ SOYDAŞLARIMIZA MAKSİMUM DƏRƏCƏDƏ KÖMƏK GÖSTƏRMƏYƏ ÇALIŞIRIQ"

Görülən işlərin davamı olaraq, 2023-cü ilin 1 yanvarından Prezidentin aylıq təqaüdü şəhid ailəsi üçün 600 manata çatdırılıb. Həmçinin əlilliyi olan şəxslərə yönələn həm müavinətlər, həm də təqaüdlər artırılıb. Belə ki, Prezidentin aylıq təqaüdü müharibə, 20 Yanvar, hərbi xidmət vəzifələrini yerinə yetirməklə və Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər üçün orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) 500 manata, 61-80 faiz pozulmasına görə (II dərəcə) 400 manata, 31-60 faiz pozulmasına görə (III dərəcə) 330 manata çatdırılmaqla bərabər, digər tərəfdən bütün kateqoriyalara aid əlilliyi olan şəxslər üçün müavinət də orqanizmin funksiyalarının 81-100 faiz, 61-80 faiz və 31-60 faiz pozulmasına görə müvafiq olaraq 270 manata, 220 manata və 150 manata çatdırılıb. Eləcə də ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslər üçün Prezidentin aylıq təqaüdü 300 manata, bu kateqoriyadan olan digər şəxslər üçün isə 200 manata çatdırılıb.

Bütün bunlarla yanaşı, İkinci Qarabağ müharibəsində əlil olmuş 379 hərbçi ən müasir protezlərlə təmin edilib. "Cəmi iki il keçməsinə baxmayaraq, İkinci Qarabağ müharibəsinə aid olan bu proqram tam yerinə yetirilib. Bu proqramın icrası mətbuatda da işıqlandırılıb. Hər kəs görə bilir ki, bizim qazilərimiz hətta futbol oynaya bilirlər. Əl protezləri daha mürəkkəb texnologiyaya malikdir. Mənə verilən məlumata görə, ən müasir texnologiyadan olan əl protezlərinin əl tutma funksiyası təqribən 40-a çatır. Yəni, biz öz sağlamlığını itirmiş soydaşlarımıza maksimum dərəcədə kömək göstərməyə çalışırıq" - deyə Cənab Prezident bildirmişdir. Bütün bunlar əlbəttə ki, Azərbaycanın sosialyönümlü ölkə olduğunun isbatıdır.

Bütün bu və digər həyata keçirilən tədbirlər bir daha göstərir ki, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşlarının rifahı və mənafeyi dayanır. Görülən işlər bir daha təsdiqləyir ki, Azərbaycan dövləti hər zaman öz vətəndaşının yanındadır. Heç şübhəsiz ki, Azərbaycanda bütün sahələrlə yanaşı, əhalinin sosial rifah halının yüksəlməsinə xidmət edən edən b islahatlar qarşıdakı illərdə də həyata keçiriləcəkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Milli Məclisin plenar iclası keçirilib: hansı qanun layihələri qəbul edildi?

***Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib. İclasda Türkiyədə təbii fəlakət səbəbindən dünyasını dəyişmiş insanların - bacı və qardaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib, onlara Allahdan rəhmət diləkləri ifadə olunub, həlak olanların ailələrinə və yaxınlarına, qardaş türk xalqına dərin hüznlə başsağlığı verilib, zəlzələ nəticəsində xəsarət almış insanlara şəfa arzulanıb.***

Milli Məclis sədri diqqətə çatdırıb ki, baş vermiş dəhşətli zəlzələni xalqımız öz faciəsi kimi qəbul edir və fəlakətin nəticələrinin aradan qaldırılmasına kömək göstərmək üçün bütün imkanlarını səfərbər edib. Həm dövlətlərarası, həm dövlət başçıları, həm də insanlar səviyyəsində özünü göstərən doğmalıq və könül birliyi Azərbaycanla Türkiyənin "bir millət, iki dövlət" olması həqiqətini bir daha sübut edir. Sahibə Qafarova Milli Məclis sədrinin rəhbərliyi ilə nümayəndə heyətlərinin fevralın 6-dan 8-dək Misir Ərəb Respublikasına, fevralın 9-dan 11-dək Cənubi Afrika Respublikasına və fevralın 13-14-dək Rusiya Federasiyasına etdikləri rəsmi səfərlərinin əsas məqamları barədə qısa məlumat verib.

Sonra iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb. Çıxışlarda Türkiyədə baş vermiş zəlzələ ilə bağlı Prezident İlham Əliyev başda olmaqla Azərbaycan dövlətinin və xalqının qardaş ölkənin yanında olduğu bildirilib. Prezidentin tapşırığı ilə ölkəmizdə operativ surətdə təşkil olunan humanitar yardım kampaniyaları, xilasedicilərimizin apardıqları əməliyyatlarda yaxından iştirakı təqdirəlayiq hesab olunub. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, Fond tərəfindən qardaş ölkəyə göndərilən yardım xüsusi qeyd edilib. Bildirilib ki, Milli Məclis də öz növbəsində fəal şəkildə yardım kampaniyasına qoşularaq, Türkiyə xalqına öz dəstəyini nümayiş etdirib. Deputatlar öz çıxışlarında bir sıra digər aktual məsələlərlə də bağlı fikirlərini bölüşüblər.

İclasda 31 məsələnin müzakirə ediləcəyini diqqətə çatdıran Milli Məclisin sədri Sahibə Qafarova qeyd edib ki, gündəliyin ilk 3 məsələsi beynəlxalq sənədlərin təsdiq edilməsi haqqında qanun layihələridir. "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən, bu qanun layihələri bir oxunuşda baxılıb, qəbul edilməlidir.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Vüqar İskəndərov "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə qanun layihəsini təqdim edib.

Bildirilib ki, Anlaşma Memorandumu 2022-ci il noyabrın 16-da Əbu-Dabi şəhərində imzalanıb. Memorandumun məqsədi tərəflərin öz dövlətinin verdiyi sürücülük vəsiqəsinin sahibi olan vətəndaşların digər ölkəyə səfər edərkən və yaxud orada yaşayarkən hərəkətini asanlaşdırmaqdır. Memoranduma əsasən, yaşamaq məqsədi olmadan gələn vətəndaşlara verilmiş sürücülük vəsiqəsi iki ölkə tərəfindən də tanınır. Yaşamaq məqsədilə gələn vətəndaşlar isə verilmiş sürücülük vəsiqəsini dəyişdirmək məqsədilə müraciət etdikdə, həmin vətəndaşlar nəzəri və praktiki imtahandan azad edilirlər. Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sənədlə bağlı bu komitənin rəyini bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsi ilə əlaqədar məlumat verib.

Diqqətə çatdırılıb ki, Saziş 2022-ci il noyabrın 23-də Belqrad şəhərində imzalanıb. Saziş preambuladan, 26 maddədən və onun ayrılmaz tərkib hissəsi olan 9 əlavədən ibarətdir. Sazişin müvafiq maddələrində readmissiyanın təsiri altına düşən subyektlərin dairəsi, onlara aid olan məlumatlar, readmissiya prinsipləri, müraciətin edilməsi qaydaları, ötürülmə üsulları, fərdi məlumatların mühafizəsi və səlahiyyətli orqanların dairəsi müəyyən edilir. Sazişdə əks olunan mühüm məsələlər sırasında, həmçinin birgə readmissiya komitəsinin yaradılması da nəzərdə tutulub.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Sazişin əhəmiyyətini qeyd edib və sənəd barədə komitənin müsbət rəy verdiyini bildirib. Müzakirələr zamanı komitə sədri Siyavuş Novruzov, deputatlar Fəzail Ağamalı, Aydın Mirzəzadə çıxış edərək bəzi fikirlərini səsləndiriblər. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məzahir Əfəndiyev "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Serbiya Respublikasının Tikinti, Nəqliyyat və İnfrastruktur Nazirliyi arasında "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair (DHDNÇ) 1978-ci il tarixli Beynəlxalq Konvensiya"nın (əlavələrlə) I/10-cu qaydasına əsasən sertifikatların (diplomların) tanınması haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə qanun layihəsini diqqətə çatdırıb.

Bildirilib ki, Anlaşma Memorandumu 2022-ci il noyabrın 23-də Belqrad şəhərində imzalanıb. Memorandum preambula və 12 maddədən ibarət olmaqla, 5 il müddətinə bağlanılır. Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər tərəfə məlumat vermədiyi təqdirdə, o avtomatik olaraq növbəti beş il müddətində qüvvədə qalır.



Sənəd barədə Səməd Seyidov Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin rəyini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra parlamentin sədri diqqətə çatdırıb ki, gündəliyin 4-cü məsələsindən başlayaraq, növbəti 13 məsələ Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxındır. O, qeyd edib ki, 12 məsələ, yəni 4-cü məsələdən 15-ci məsələyədək olan qanun layihələri müvafiq Konstitusiya Qanununun tələbinə əsasən, bir oxunuşda qəbul ediləcək. Belə ki, 97 qanunun, qanunlarla təsdiq edilmiş 1 Nizamnamənin və 3 Əsasnamənin "Media haqqında" Qanuna uyğunlaşdırılması nəzərdə tutulur.

Sonra Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli həmin məsələlər barədə danışıb. Torpaq Məcəlləsində, Mülki Məcəllədə, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, İnzibati Prosessual Məcəlləsində, Şəhərsalma və Tikinti Məcəlləsində və Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə, 2000-ci il 14 aprel tarixli 859-IQ saylı Qanunu ilə təsdiq edilmiş "Bələdiyyələrin daimi və başqa komissiyaları haqqında Əsasnamə"də, 2005-ci il 3 may tarixli 903-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Bələdiyyələrin regional assosiasiyalarının Nümunəvi Əsasnaməsi"ndə və 2005-ci il 3 may tarixli 906-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Müflisləşmə və iflas haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında", "Mülki müdafiə haqqında", "Qrant haqqında", "Hidrometeorologiya fəaliyyəti haqqında" və "Uşaq hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Məlumat azadlığı haqqında", "Nəşriyyat işi haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında", "Telekommunikasiya haqqında", "İnformasiya əldə etmək haqqında", "Teatr və teatr fəaliyyəti haqqında" və "Mədəniyyət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Dini ekstremizmə qarşı mübarizə haqqında", "Lisenziyalar və icazələr haqqında", "Hərbi vəziyyət haqqında", "Bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Məşğulluq haqqında", "Hesablama Palatası haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında", "Psixoloji yardım haqqında", "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" və "Turizm haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "İctimai iştirakçılıq haqqında", "Yaşıllıqların mühafizəsi haqqında", "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "İpoteka haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Dərman vasitələri haqqında", "Əmanətlərin sığortalanması haqqında", "Dövlət borcu haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" və "Vətəndaşların müraciətləri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Coğrafi obyektlərin adları haqqında", "Avtomobil nəqliyyatı haqqında", "Arıçılıq haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında", "Fərdi məlumatlar haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında" və "İnvestisiya fondları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Lotereyalar haqqında", "Elektron imza və elektron sənəd haqqında", "Ovçuluq haqqında", "Fövqəladə vəziyyət haqqında", "Mühasibat uçotu haqqında", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Məlumat toplularının hüquqi qorunması haqqında", "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Yol hərəkəti haqqında", "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında", "Torpaq bazarı haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Terrorçuluğa qarşı mübarizə haqqında", "Milli arxiv fondu haqqında", "Bələdiyyələrin statusu haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Su təchizatı və tullantı suları haqqında" və "Taxıl haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Sərhəd mühafizə orqanları haqqında", "Daxili qoşunların statusu haqqında", "Rəsmi statistika haqqında", "Həmkarlar ittifaqları haqqında", "Haqsız rəqabət haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" və "Xüsusi iqtisadi zonalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Yerli rəy sorğusu haqqında", "Avtomobil yolları haqqında", "Diplomatik xidmət haqqında", "Dövlət satınalmaları haqqında", "Gənclər siyasəti haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında", "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında", "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında", "Tənzimlənən qiymətlər haqqında" və "Banklar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə sənədlər haqqında ümumi məlumat verib. Sonra təqdim olunan qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

# Böyük abadlıq-quruculuq meydanı - AĞDAM











27 il sonra Ağdam işğaldan azad olundu və Azərbaycan öz haqqına qovuşdu. Bu gün Ağdam yeni günün yaşayır və işğaldan azad olunan Ağdamımızda abadlıq-quruculuq işləri həyata keçirilir. Ermənilər nə qədər vandallıq əməlləri törətsələr də, xalqımza məxsus dini-mədəniyyət abidələrini, yaşayış evlərini, infrastrukuru dağıtmış olsalar da, tarixi həqiqət qələbə çaldı. Bu gün nəinki, Ağdamda eləcə də işğaldan azad olunan digər ərazilərdə böyük abadlıq-quruculuq işləri aparılır. Azərbaycan Prezident İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Bu gün misli görünməmiş bərpa işləri aparılır. Nəyin hesabına? Məhz hazırlıq hesabına. Ona görə biz güclü dövlət yaratmışıq, Mən son illərdə dəfələrlə demişdim və bax, həyat mənim sözümü təsdiqlədi ki, bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır və çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır".Görülən işlər hazırlanmış layihələr, şəhərlərin baş planı əasında sistemli olaraq reallaşır. Hər qarışında tariximizin izi olan bu ərazilərdə böyük bir xalqın izi, imzası vardır. 30 ilə yaxın işğal altında olan ərazilərimizdə sürətlə aparılan abadlıq və quruculuq işləri burada yeni müasir məkanlarımız olacağından xəbər verir. Əlbəttə ki, bu ərazilərdən erməni vandallarının izlərini silib atsaq da tariximizdə, yaddaşımızda onların törətdikləri çirkin əməlləri silinməyəcək.

## "BİZ ELƏ BİR ŞƏHƏR QURACAĞIQ, ELƏ BİR AĞDAM QURACAĞIQ Kİ, BÜTÜN DÜNYA ÜÇÜN ÖRNƏK OLACAQDIR"

Ağdam rayonunun işğaldan azad olunması 2020-ci ilin noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəticəsində baş tutdu. Noyabrın 10-da Prezident İlham Əliyev xalqa müraciətində qeyd etdiyi kimi, bu bəyanatın imzalanmasının səbəbi noyabrın 9-da Dövlət Bayrağı Günündə bizim növbəti şanlı hərbi qələbəmiz olub:"Çünki noyabrın 9-da 72 yaşayış məntəqəsini Azərbaycan Ordusu işğalçılardan azad edib. Şuşanın azad edilməsi, noyabrın 9-da 72 yaşayış məntəqəsinin azad edilməsi və sentyabrın 27-dən bu günə qədər 300-ə yaxın yaşayış məntəqəsinin azad edilməsi ilə Ermənistan ordusunun belini qırmışıq. Paşinyan məcbur olub bu bəyanata öz imzasını atır. Amma çox miskin, çox acınacaqlı durumda. Mən isə böyük fəxarət və sevinc hissi ilə bu bəyanata öz imzamı atmışam. Çünki bu bəyanat uzun illər davam edən işğala son qoyur. Bu bəyanat imkan verir ki, hələ də işğal altında olan digər rayonlarımızı - Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən qaytaraq. Qısa bir müddət qoyulur, bu ayın sonuna qədər bu rayonlar bizə qaytarılır".

Bəli, beləliklə, 27 ildən sonra günəş şüaları ilə nurlanmış ağ ev Ağdam Azərbaycana qaytarıldı. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə məhəl qoymayan Ermənistan öz işğalçı siyasətini davam etdirsə də Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi. 27 il Ağdam şəhəri də daxil olmaqla ərazisinin böyük bir hissəsi erməni işğalı altında olan ərazimiz, əzəli torpaqlarımız sahiblərinə qaytarıldı. "Bütün binalar, bütün kəndlərdəki evlər, ictimai binalar ermənilər tərəfindən dağıdılıb. Bu, misli görünməmiş barbarlıqdır, vandallıqdır, vəhşilikdir. Bu, erməni faşizminin eybəcər sifətinin göstəricisidir. Bütün dünya bunu görməlidir və görür. Biz bundan sonra da xarici vətəndaşları buraya dəvət edəcəyik. Onlar gələcəklər və erməni vəhşiliyi nədir onu görəcəklər"- deyə Prezident Ağdama səfəri zamanı çıxış edərkən bildirmişdir.

Bu gün ermənilərin viran qoyduqları ərazidə irimiqyaslı layihələr icra olunur. Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması ilə yanaşı, burada işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir. Artıq Ağdam rayonunun Xıdırlı və Kəngərli kəndlərinin dövlət başçısı tərəfindən təməli qoyulub. Ağdam şəhərinin mərkəzindən 3 kilometr məsafədə yerləşən Xıdırlı kəndində 5990 nəfərin (1500 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 418 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 160 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 2951 nəfərin köçürülməsi üçün 719 fərdi evin tikilməsi planlaşdırılır. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, dini, xidmət, kommersiya müəssisələri, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 2595 nəfərin işlə təmin olunması planlaşdırılır.Rayondan 6 kilometr məsafədə yerləşən Kəngərli kəndində də 2626 nəfərin (639 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177,2 hektardır. Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 66,2 hektar torpaq sahəsinin ayrılması nəzərdə tutulur.

Birinci mərhələdə 1279 nəfərin köçürülməsi üçün 290 fərdi evin inşa edilməsi planlaşdırılır. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi burada mədəniyyət və əyləncə mərkəzləri, müxtəlif təyinatlı bir sıra müəssisələr, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 1182 nəfərin işlə təmin olunması nəzərdə tutulur. Artıq ötən ilin oktyabrın 10-da hər iki kəndin tikinti işlərinə başlanılıb. Kəndlərdə tikinti işlərinin 2024-cü il aprelin 10-da tamamlanması nəzərdə tutulur.İşğaldan əvvəl regionun sənaye mərkəzi olan şəhər yenidən öz həyatına qaytarılacaq. Burada Ağdam Sənaye Parkı tikilir. Qarabağ xanlığının banisi və ilk hökmdarı, Cavanşirlər sülaləsinin banisi Pənahəli xanın məqbərəsinin yerləşdiyi İmarət kompleksinin və tarixi məscidin bərpası istiqamətində işlər davam etdirilir."Qarabağ" futbol komandasının oyunlarının keçiriləcəyi stadionun tikilməsi də nəzərdə tutulub. Ağdamda yaradılması nəzərdə tutulan Qarabağ Universiteti ilə şəhər təhsil mərkəzinə çevriləcəkdir. Bütün görülən işlərlə yanaşı, artıq şəhərdə Qələbə Muzeyi və İşğal Muzeyi inşa olunur.Azərbaycan Prezidentinin bildirdiyi kimi "Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır".

## "BİZİM BÜTÜN MADDİ SƏRVƏTİMİZ MƏQSƏDYÖNLÜ ŞƏKİLDƏ DAĞIDILDI, TALAN EDİLDİ"

Bütün bunlarla yanaşı, Ağdam Cümə məscidinin bərpa işləri aparılır. 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilən bu məscid Ağdamın işğal altında olduğu müddətdə şəhərdə ermənilər tərəfindən dağıntıya nisbətən az məruz qalan yeganə tikilidir. "Cümə məscidinin qalıqlarından başqa, bir dənə də salamat bina yoxdur. Bunu hansısa yad planetli, necə deyərlər, ünsürlər törətməyiblər. Bunu bizim qonşumuz olan, bizim çörəyimizi yeyən, bizim torpağımızda özünə yuva salan, ancaq bizə qarşı daim nifrət hissi ilə yaşayan ermənilər törədiblər. Bu dağıntılar Birinci Qarabağ müharibəsindən sonra törədildi. Bu, ikinci müharibə dövründə törədilən dağıntılar deyil. Bizim bütün maddi sərvətimiz məqsədyönlü şəkildə dağıdıldı, talan edildi. Tarixi-dini abidələrimiz söküldü", - deyə Prezident bildirib. Cümə məscidinin bərpa-restavrasiyasına Heydər Əliyev Fondu tərəfindən başlanılıb. Layihənin icrası üçün Avstriyanın "Brugger&KO Restauratoren GmbH" şirkəti ilə müqavilə imzalanıb. Məscid əvvəlcə taxta dam örtüyü ilə örtülüb, kərpic günbəzlər damın altında havadan və küləkdən qorunub. İlkin mərhələdə damın bütün landşaftı son biogen artımından azad ediləcək, qübbələr üzərində qırılan hörgü birləşmələri və gips örtükləri çıxarılacaq. Bərpa işləri bütövlükdə tarixi görünüşə uyğun olaraq həyata keçiriləcək.

Bu günlərdə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təşkilatçılığı ilə Ağdam şəhərində Konfrans Mərkəzində keçirilən Şəhərsalma üzrə işçi qrupunun növbəti iclasında Qarabağda, eləcə də Ağdamda bərpa ediləcək yaşayış məskənlərinin layihələri barədə, o cümlədən, daxili yolların, küçələrin, yaşayış məntəqələrinin enerji və su ilə təminatı üzrə işlərin vəziyyəti barədə layihələr diqqətə çəkilib. İclasda Ağdamda aparılan tikinti-quruculuq işləri, rayonun ilk bərpa ediləcək kəndlərin tikinti layihələri, Ağdam şəhərinin daxili yol-küçə şəbəkəsinin layihələndirilməsi istiqamətində görülmüş işlər, bərpa ediləcək yaşayış məntəqələrinin elektrik enerjisi, su təminatı, eləcə də infrastruktur təminatı obyektləri üzrə görüləcək işlərin vəziyyəti müzakirə olunub.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 ilə yaxın bir zamanda xarabazara çevrilmiş torpaqlarımızda canlanma müşahidə olunur. Bütün Qarabağ zonası "yaşıl enerji" zonasına çevriləcək. Zəngilan rayonu Ağalı kəndində canlı həyat yaşanılır və tezliklə Ağdam şəhəri də yenidən qurularaq, öz əzəli sakinlərini qoyununa alacaqdır.

***Zümrüd BAYRAMOVA***

# Ermənilərin saxta və şaxta şikayəti



***Tarix heç vaxt unudulmur, faciəli hadisələr isə yaddaşlarda əbədi qalır, ta ki bədəli ödənilməyənə kimi, cinayətkarlar cəzalandırılmayana kimi. İş tamam olan insanın içinə bir rahatlıq, bir dinclik gəlir, amma vurulan yara zaman-zaman yada düşür. Xocalı faciəsi, qətliamı, soyqırımı kimi…***



1992-ci ilin məhz bu ayında, fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı birlikləri Qarabağdakı sovet-rus ordusuna məxsus 366-cı alayın canlı qüvvə və texnikalarından istifadə etməklə, demək olar ki, silahsız olan Xocalı sakinlərinin üzərinə hücum edib bir gecədə 613 nəfəri amansızcasına qətlə yetirdilər. minlərlə sakin əsir-girov götürüldü, öldürüldü. Bu qətliam qurbanlarının, əsir götürülənlərin arasında qocalar, uşaqlar, qadınlar əksəriyyət təşkil edirdilər. Ağdama gəlib çata bilən xocalılılar arasında ayaqları, əlləri donan, erməni silahlılarının təqibindən güclə qurtula bilən nə qədər insan vardı. Bəd xəbərin atı yüyrək olar, deyiblər. Amma bu xəbər dünyaya başqa cür çatdırıldı. İnformasiya blokadasında olan Azərbaycan Xocalı şəhərinin başına gətirilən müsibəti dünyaya çatdırmaqda çətinlik çəkirdi. Bəzən hadisəni uydurma kimi qəbul edən tanınmış media qurumları erməni təbliğatına boyun əydiklərini, erməni yalanlarına uyduqlarını gizlədə bilmirdilər.

Bu gün Qarabağda bir ovuc erməni separatçısı qalıb. Onları Ermənistanın və onun arxasında duran qüvvələrin "qurbanlıq qoyun"u adlandıranlar da var. Xankəndi və ətraf qəsəbələrdə, Rusiya sülhməramlılarının cavabdeh olduğu ərazilərdə yaşayan ermənilərin əksəriyyəti Azərbaycanla müharibədə hərbi cinayətlər törətmiş qeyri-Azərbaycan vətəndaşlarıdır. Onların əksəriyyəti 1988-ci ildən sonar, yəni Azərbaycanla münaqişəyə, separatçılığa başlayandan sonra Qarabağa köçüb gələnlərdir. Yəni, onların Azərbaycanla, azərbaycanlılarla yer, ərazi, torpaq, mülk davası etməyə heç bir hüquqi əsasları, o cümlədən mənəvi haqları yoxdur. 2022-ci ilin avqust ayından Qarabağa Rusiyadan gələn və burada qanunsuz olaraq məskunlaşan "dezertir" (fərari) Ruben Vardanyan da o mənəvi haqqı olmayanlardan biridir.

Bəli, söhbətimizin "can"ı da Vardanyanla bağlıdır. O özünün sosial şəbəkə hesabıbda yazıb ki, Azərbaycan ekoaktivistləri tərəfindən Laçın yolunun "bağlanması" Qarabağdakı ermənilərə qarşı "deportasiya, soyqırımı siyasətidir". Və bu ikiayaqlı dünya birliyinə çağırış edir ki, "ermənilər qışın sərt soyuğunda və şaxtada qazsız, işıqsız və internetsiz qalıblar, yol bağlı olduğundan Qarabağdan İrəvana gedə bilmirlər. Bu da insan haqlarının pozulmasıdır". Amma internet davası aparan Vardanyan tarixi unutmamalıdır. Düz 30 il bundan əvvəl candaşı, soydaşı olan ermənilərin Xocalı, Malıbəyli, Cəmilli, Qaradağlı, Qaybalı, Kərkicahan, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Füzuli, Cəbrayıl, Ağdam və digər şəhər və kəndlərimizdə törətdikləri vəhşiliklərdən xəbərsizdirmi? Azərbaycanlılara sadəcə yaşamaq haqqı, həyatda qalma haqqı verməyən, onların mülkiyyət hüququndan məhrum edənlərin kimliyini Vardanyan bilmirmi? İnternet, yüksək səviyyəli xidmət tələb edən bir ovuc erməni buna onların haqqının çatıb-çatmadığını da götür-qoy etsinlər. Bu haqqı ruslardan, farslardan, fransızlardan, gürcülərdən amerikalılardan istəməkdə sərbəstdirlər, amma azərbaycanlılardan istəmək... Bu, artıq həyasızlığın ta kəndisidir.

Bu gün ortada sülh müqaviləsi ilə bağlı bəzi müzakirələrin getdiyi barədə fikirlər dolaşır. 44 günlük müharibənin qalibi olan Azərbaycan Ermənistana sülh təklifləri edir. Tarixdə isə yalnız qaliblərin diqtə etdikləri barədə yazılıb. Buna baxmayaraq, Azərbaycan 5 baza prinsipləri üzərində tərtib olunmuş təklifləri Ermənistan tərəfinə göndərib. Ermənistanın uzun çək-çevirdən, müzakirələrdən sonra həmin təkliflərə verdikləri cavabın Türkiyə vasitəsilə Azərbaycana göndərildiyi deyilir. Cavabda nəyin yazıldığından tam olaraq xəbər yoxdur. Nəzərə alsaq ki, bundan əvvəlki sülh təkliflərinə Ermənistandan daha çox pozucu niyyətlər üzərində qurulmuş cavab verilmişdi, budəfəki cavabın da hansı şəkildə olduğunu təxmin edə bilərik. Ermənistanın keçmiş baş naziri Qrant Baqratyan deyib ki, əgər sülh müqaviləsində Qarabağın statusu ilə bağlı bənd yoxdursa, o, bir neçə ay sonra ləğv ediləcək: "XİN, eləcə də Nikol Paşinyan aktiv şəkildə Azərbaycanla sülh müqaviləsindən danışırlar. Bununla əlaqədar deyə bilərəm ki, delimitasiya olmadan sülh müqaviləsi imzalamaq yeni milli faciəyə çevriləcək. Ermənistan həmişəlik 2020-2022-ci illərdə "itirdiyi əraziləri" unutmalı olacaq. Azərbaycan tələb etdiyi anklavları alacaq və İrəvan-Mehri yolunu bağlayacaq. Əgər sülh razılaşmasına statusun gələcək müzakirəsi salınmasa, Qarabağ bir neçə ay sonra sadəcə yox olacaq". Nəzərə alsaq ki, bu şəxs Ermənistanın nə vaxtsa baş naziri olub, burada bir az diqqətli olmalıyıq. Yəni, ermənilərin hər an altına imza atdıqları sənədlərdən çəkiləcəyini, imtina edəcəklərini gözləyə bilərik.

Əvvəlcə Araik Arutyunyan Moskvaya getdi və oradan geriyə, Xankəndiyə qayıtdı və sonra konstitusiya dəyişiklikləri tələb etdi ki, bunun da pərdəarxası məqamları artıq bəllidir. Separatçıların liderindən belə dəyişikliklərə gedilməsini Ermənistanın Baş naziri Nikol Paşinyan tələb etdiyi üzə çıxıb. Onda belə çıxır ki, Azərbaycanla sülh müqaviləsi imzalamağa hazırlaşan, ya da özünü belə göstərməyə çalışan baş nazir Paşinyan Qarabağ separatçıları ilə bağlarını hələ də qoparmayıb. Erməni mediası iddia edib ki, baş nazir Arutyunyanın hakimiyyətinin məhdudlaşdırılmasına nail olaraq, Qarabağdakı xaosu gücləndirmək istəyir. Paşinyanın bu "əməliyyat"ı qondarma rejimin "təhlükəsizlik şurası"nın keçmiş "katib"i Samvel Babayanla apardığı ortaya çıxıb. Babayanın Xankəndiyə getməsi haqda məlumatlar da bu versiyanı sübuta yetirir.

Moskvanın Qarabağdan başlamasının səbəbini də burada axtarmaq lazımdır. Amma Ermənistan rəhbərliyi bunu bacara biləcəkmi? Azərbaycanın balanslaşdırıcı siyasətini imitasiya etməyə çalışan İrəvanın bunu həyata keçirəcək səviyyədə nə iqtisadi, nə siyasi, nə də hərbi potensialı var.

Ermənistanın hakim dairələri zaman-zaman ATƏT-in Minsk qrupu və, bu qurumun münaqişənin həllində hakim ola biləcəyi barədə yanlış informasiyalar tiraşlayırlar. "Minsk Qrupu formatı tarixin zibilliyinə məhz ABŞ və Fransadan olan həmsədrlərin uydurma bəhanə ilə 2022-ci ilin fevralında rusiyalı həmkarları ilə əməkdaşlığı dayandırmasından sonra atılıb. Budur fakt. Onlardan bu cür fəaliyyətə görə başa düşülən izah da gəlməyib. Bunu nəzərə alaraq, biz Bakı və İrəvana üçtərəfli format çərçivəsində yardım etməyə diqqətimizi yönəltdik", - deyə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) sözçüsü Mariya Zaxarova bildirib. Deməli, Ermənistanın Minsk qrupuna yarınmaq istəyi də "suya düşüb". Həll yolu yalnız Azərbaycanla dil tapmağa, Bakının qaydalarına boyun əyməyə qalıb.

Fevralın sonuna qədər Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Bakıya səfəri nəzərdə tutulub. Səfərin detalları ilə bağlı hələlik razılıq əldə edilmədiyi qeyd edilib. XİN-dən bildirilib ki, Rusiya sülh müqaviləsinin imzalanması üçün Bakı və İrəvana yardım edir. Mariya Zaxarova deyib ki, Rusiya XİN-in nümayəndəsi İqor Xovayevin bu yaxınlarda Ermənistan və Azərbaycana səfərini xatırladıb və diqqətə çatdırıb ki, hər iki tərəf Rusiyanın vasitəçiliyində maraqlı olduqlarını bildiriblər: "Moskvada Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin növbəti görüşünü təşkil etməyə hazır olduğumuzu təsdiq edə bilərəm".

Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Jozep Borrel isə ermənilərin daha çox şikayət etdiyi Laçın dəhlizinə görə Rusiyanın məsuliyyət daşıdığını bəyan edib. O, həm Azərbaycan, həm də Ermənistanla sıx əlaqə saxlanıldığını vurğulayıb. Məlumatda bildirilib ki, Aİ-nin Cənubi Qafqaz və Gürcüstandakı böhran üzrə xüsusi nümayəndəsi Toivo Klaarın dəstəyi ilə ali nümayəndə Borrel hər iki tərəflə sıx əlaqə saxlayır. Üçtərəfli bəyanata əsasən, o, sülhməramlı kontingentin nəzarətində olan Laçın dəhlizinə görə Rusiyanın məsuliyyətini qeyd etməlidir. Aİ-nin Ermənistan-Azərbaycan münasibətlərində problemin nəticələrinin aradan qaldırılması üçün ayırdığı humanitar maliyyə vəsaiti 2022-ci il üçün 3.6 milyon avro təşkil edib. Vəsait yerdə fəaliyyət göstərməyə qadir olan yeganə beynəlxalq humanitar təşkilat olan Beynəlxalq Qızıl Xaç Komitəsi üçün tam səfərbər edilib.



Qarabağdakı separatçıların bir qismi, yəni Arutyunyanın səfində duranlar işlərini rəsmi İrəvanla qurmaqla məsuliyyəti bölüşməyi də yaddan çıxarmayıblar. Vardanyanın yanındakılar isə daha çox beynəlxalq təşkilatlarla işləməyə üstünlük verirlər. Buna görə də Vardanyanın tez-tez xarici televiziyalara verdiyi intervülər qarşı tərəfin narahatlığına səbəb olub. Qondarma qurumun "konstitusiya"sına ediləcək "dəyişiklik" də Moskvanın emissarlarının neytrallaşdırmağa yönəlib. Qərbə meyllənən Paşinyan hakimiyyətinin Rusiyanın təsir imkanlarını məhdudlaşdır-

Bəli, Rubenin şikayəti Xocalı soyqırımının növbəti ildönümü ərəfəsində diqqətimizi yenidən faciələrimizə fokusladı. İnternetin kəsilməsinə, təbii qazın az, yaxud tam məhdudlaşdırılmasına etiraz edən ermənilərə Xocalı qətliamını xatırlatmalıyıq. Soyuğu, şaxtalı gecəni meşədə keçirən azərbaycanlılarla Xankəndidəki evində, isti yorğan-döşəyində hiss edən ermənilər arasında fərqi görməzdən gələn bütün ermənilərə bunu çatdırmalıyıq. Çünki hissiyyatı olmayan kim olursa olsun, hadisəyə yanlış çərçivədən baxacaq.

***V.VƏLİYEV***

# Heydər Əliyev-100



# AZADLIĞIN HEYDƏR ƏLİYEV YOLU

## Milli fəlakətimizin qısa tarixçəsi

***Alman filosofu Karl Marks dostu Fridrix Engelsə məktublarının birində yazırdı:"Əzizim Fridrix, unutmayaq ki, ən böyük tarix yaradan xalq türklərdir ki, yaratdıqları tarixi yazmaqda ən tənbəl xalq yenə türklərdir!". Beş min ildən çox dövlətçilik tarixi olmaqla dünyanın ən qədim dövlətlərindən birini yaradan, dəfələrlə dünya güclərinin hücumlarına məruz qalsa da, hər dəfə böyük sərkərdələrin sayəsində düşmənlərini əzə bilən, heç vaxt mütiliyi qəbul etməyən, zaman-zaman nizamı pozulan dünyaya nizam gətirən, yeni düzən formalaşdıran, qüdrətli və ədalətli imperiyalar quran bir xalqın qəhramanlıqlarla dolu tarixini bu gün qeyri-türk mənbələrdən əldə etmək məcburiyyətində qalırıqsa, filosofun fikirlərini təkzib etməyə haqqımız yoxdur.***



Yaşadığı regionun ən qədim, oboragen xalqı olaraq min illərlə mərdi-mərdanə, üzüzə döyüşlərdə möhtəşəm qələbələr qazanmış, qılınc, qalxan, nizə savaşlarında yenilməzliyini bütün bəşəriyyətə nümayiş etdirmiş bir xalqın odlu silahlar meydana gəldikdən sonra namərd savaşlar və hiylegər siyasi oyunlar nəticəsində istilaya məruz qalması gerçək tarixi faciəmiz idi. Dünyada gedən məkrli siyasətə boyun əymək istəməyən xalqımız bu oyunların qurbanlarından birinə çevrilmişdi. Yüz illərlə bu istibdaddan can qurtarmağa çalışsa da, hər dəfə fədakar mübarizlərimiz qan içində boğulmağa, yenidən müstəmləkə zənciri ilə birgə həyatlarını davam etdirməyə məhkum edilmişlər. Bu istibdaddan qurtulmağın isə bir yolu var idi: düşmənin məkrli oyunlarından baş çıxarmaq, ona qarşı onun öz "silah"ı ilə savaşmaq və azadlığını bərpa etmək! Bu baxımdan tariximizin ən önəmli və ən möhtəşəm dövrlərindən biri olan XX əsrin ikinci yarısında Azərbaycan türkünün istiqlalına qovuşmaq yolundakı əzəmətli, düşünülmüş, müdrik savaşının, hələlik, bizlərə məlum olan kiçik bir hissəsinindən söhbət açmaq istəyirik. Faktlara, şahidlərin dediklərinə əsaslanan bu möhtəşəm AZADLIQ mücadiləsi tarixinin baş qəhramanı, rəbbin təkcə Azərbaycana deyil, ümumən türk xalqlarına bəxş etdiyi ölməz dühа, ULU ÖNDƏR HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEVİN adi insan ağlına sığması belə mümkün olmayan fenomen fəaliyyətindən, istibdada son qoyulması yoluna bəxş etdiyi nurlu işığın az bir qismindən danışmaq istəyirik.

### Müqəddəs gəliş

Deyilənlərə görə, 1923-cü il baharın ortalarında, buludlu, yağışlı bir gündə Naxçıvanda, Əlirza kişinin ailəsində bir körpənin dünyaya gəlişi ilə bərabər göylərdən buludlar çəkilmiş, yağışlı havanı nurlu günəş əvəz etmişdi. Bəlkə də dünyaya, ədalətsizliklərə son qoyulması, pozulmuş nizamın düzənə qaytarılması, iftixar doğuracaq tarixə malik bir xalqın zülmlərdən, əzablardan xilas edilməsi, nəhəng imperiyaların yüz illər boyu işləyib formalaşdırdıqları siyasi düsturu dəyişdirməsi, xalqının, ümumən türk dünyasının tarixi əzəmətini özünə qaytarması missiyası ilə göndərdiyi qüdrətin müqəddəs gəlişinin insanlığa müjdəsi idi bu nur axını. Onun gəlişi ərəfəsində bu bölgədə və bütün Azərbaycan ərazilərində qaniçən erməni birləşmələri rus Sovet imperiyasının dəstəyi ilə Azərbaycan xalqına qarşı soyqırım həyata keçirir, onları müdafiə edənlər isə Azərbaycan xalqının rəyini nəzərə almadan bu torpaqları Ermənistan adlanan qondarma dövlətə bağışlayırdı. Dünyaya yeni gələn bu körpənin onlarla yaxın qohumları da daxil olmaqla on minlərlə insanı qətlə yetirən ermənilərdən xilas olmaq üçün azərbaycan türkləri ata-baba yurdlarını, o cümlədən Zəngəzuru tərk etməyə məcbur edilirdilər. Bütün bu ədalətsizlikləri, insanlığa qarşı törədilən cinayətləri görən rəbbim, məhz Onu seçdi, məhz Onun ruhuna, canına xilaskarlıq missiyasını əta elədi və bu missiyanı sona çatdırmaq üçün xalqına göndərdi. Bütün sonrakı fəaliyyətini öyrənib, təhlil süzgəcindən keçirdikcə, Onun - HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEVİN məhz xalqının, mənsub olduğu türk dünyasının bu bəlalardan xilası üçün rəbbin əli ilə göndərildiyinə əmin olmamaq mümkün deyil!

### Gənclərə örnək olan gənclik!

Hər bir insan kimi sadə bir türk qadınının bətnindən dünyaya gələn, hələ körpə ikən ağır, məşəqqətli köçkünlük həyatı yaşamağa məruz qalan, yaşa dolduqca baş verənləri öyrənən, onu təhlil süzgəcindən keçirən və bütün həyatını təkcə yaxın qohumlarının deyil, qədim bir xalqın başına gətirilənlərin əsas mənbəyini ilkin gənclik dövründə anlayıb da, həmvətənlərinin başına gətirilənlərin qisasını almaq və əzəmətli tarixi keçmişi olan bir milləti özünə qaytarmaq naminə xalqı səfərbər etməklə onu bu bəlalardan xilas etməyin yol xəritəsini cızan, həmin yolla büdrəmədən, ən ağır zərbələrə belə mətanətlə sinə gərərək bu yolu sona qədər qət edən fenomen bir dühа, rəbbin göndərdiyi qalibiyyət müjdəli ölməzlik mücəssəməsi - HEYDƏR ƏLİYEV!

Hələ ən gənc yaşlarında xalqın başına müsibətlər gətirən erməni quduzlarına yal verənlərin kimlər, hansı qüvvələr olduğunu özü üçün dəqiqləşdirən, lakin bu qüvvələrlə yüz illər boyu aparılan qanlı savaşların nəticəsiz qaldığını yaxşı bilən gənc Heydər Əliyev, bu yalverənlərdən birinin bel sütunu olan xüsusi xidmət orqanında işə başlayır.20 yaşlı Xüsusi Xidmət Orqanı əməkdaşının bəşəriyyətin faşizm taunundan xilası yolunda göstərdiyi, hələ də məxvi saxlanılan tarixi xidməti, təbii olaraq Sovetlər İttifaqı rəhbərliyinin diqqətini cəlb edir və Heydər Əliyevə bir-birinin ardınca yüksək etimad göstərilməyə başlanır. Gənc yaşlarında, Dövlət Təhlükəsizliyi Komitəsində işlədiyi illərdə Sovet İttifaqı rəhbərliyi tərəfindən üç mindən artıq azərbaycanlı "vətən xaini"nin siyahısının Heydər Əliyevə verilməsi, onların axtarılıb tapılması və cəzalandırılması haqqında tapşırıq alması arxiv sənədlərində də əksini tapır. Lakin millətini canından da çox cevən və xalqının adına ləkə gətirə biləcək bu sənədlərdən onu xilas etməyi qarşısına məqsəd qoyan gənc xüsusi xidmət işçisi, Mehdi Hüseynzadə başda olmaqla həmin siyahıda olan bir neçə qəhrəman haqqında faktlar toplayıb, siyahının doğru tərtib edilmədiyinə sovet rəhbərliyini inandırır. Nəticədə "vətən xaini" adı ilə damğalanan həmin üç min nəfəri və mənsub olduğu xalqı bu rüsvayçı addan xilas edir. Sonradan məhz Mehdi Hüseynzadə haqqında məşhur "Uzaq sahillərdə"romanının yazılması və eyniadlı filmin çəkilməsi, Bakının mərkəzində bu əfsanəvi qəhrəmana abidənin ucaldılması da birbaşa Heydər Əliyevin təşəbbüsü və təşkilatçılığı ilə reallaşmışdır.

Real tarixi faktları öyrəndikcə gənc xüsusi xidmət orqanı zabitinin bütün varlığını bürüyən milli duyğularının təcəssüm etdiyini görməmək mümkün deyil. Beləliklə, bəzi məqamlarda hətta karyerasını təhlükə altına atmaqla olsa belə, xalqının, təmsil etdiyi millətin adına xələl gətirə biləcək məqamlarda qətiyyətli və düşünülmüş addımlar atan Heydər Əliyev, əsas məqsədinə çatmaq – imperiyanın ən yüksək məqamlarında təmsil olunmaq, onun siyasi mətbəxini dəqiqliyinə qədər öyrənmək üçün üzvü olmağa məcbur edildiyi Kommunist Partiyasının, Sovet Hakimiyyətinin etibarını qazanmaq yolunda da səbr və dözümlə irəliləyirdi. Nəhayət, 1967-ci ildə Azərbaycanlı xüsusi xidmət orqanı işçisi kimi ilk dəfə olaraq generalmayor rütbəsi verilən Heydər Əliyev həm də ilk azərbaycanlı olaraq Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinə sədr təyin edildi. Cəmi iki il sonra – 1969-cu ilin iyulunda isə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi təyin edilərək respublikaya rəhbərlik etməyə başladı.




## Bir xatirə

1972-ci ilin yayında Şuşada, pioner düşərgəsində olarkən ilk dəfə görüşdüyüm inqilabçı şair Xəlil Rza Ulutürklə sonrakı dövrlərdə tez-tez görüşürdüm. 1976-cı ilin mart ayında, şair ev dustaqlığına məhkum edildiyi dönəmdə tələbə ikən növbəti görüşümüz zamanı şair mənim o zaman Azərbaycan KP MK-nın birinci katibi işləyən Heydər Əliyevlə bağlı işlətdiyim bir sözdən bərk əsəbləşdi və "Heydər Əliyev əsl türk oğlu türkdür, bu xalqı da o azadlığa çıxaracaq. Siz gənclər vaxtı gələndə çox şeyləri biləcəksiniz!" dedi. İki gün sonra atamın təkidi ilə rayona getdim. Məlum oldu ki, Xəlil Rza mənimlə söhbətdə dedikləri barədə şair Bəxtiyar Vahabzadəyə danışmış, Bəxtiyar Vahabzadə isə dərhal rayondakı yaxın dostlarından biri vasitəsilə məni rayona apartdırmış və Xəlil Rza ilə söhbət barədə kimsəyə danışmamaq üçün məni təlimatlandırmağı istəmişdi.Rayonda mənimlə görüşən "Bala Marks" ləqəbi ilə tanınan Zeynal Məmmədov Xəlil Rza Ulutürklə söhbətimiz haqqında məndən heç nə öyrənə bilmədiyinə əmin olduqdan sonra, bir məktub verib məni şair Bəxtiyar Vahabzadə ilə görüşməyi tapşırdı. Beləliklə, mən həmin dövrdən başlayaraq Azərbaycanda tam məxvi fəaliyyət göstərən "Üçlər hərəkatı"na daxil oldum. Hələ o zaman Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın, İsmayıl Şıxlının, Xudu Məmmədovun eyhamlarından, sonralar isə açıq söhbətlərindən əmin olmuşdum ki, Azərbaycanda gizli gedən milli mücadilə məhz Heydər Əliyevin dəstəyi ilə, onun nəzarəti altında fəaliyyət göstərir. 1991-ci ilin noyabr ayında Heydər Əliyevlə Naxçıvandakı tarixi görüşüm zamanı isə yanılmadığıma qəti əmin oldum. Belə ki, 1978-ci il may ayının 27-dən 28-nə keçən gecə, ali məktəbin sonuncu kursunda oxduğum vaxt, Azərbaycan Xalq Cümhuriyyətinin 60-cı ildönümü günü mənə verilən tapşırığı icra edərək xüsusi hazırlanmış anti-sovet plokatı dəmiryol vağzalındakı saxlama kamerasından götürüb şəhərdə insanların çox toplaşdığı yerlərə yapışdırmaq üçün çıxdım. Portretdə Azərbaycanın inək formasında təsvir edilmiş xəritəsi və Kreml təsvir edilir, inəyin döşündən çıxan, üzərlərinə pambıq, üzüm, neft, qaz, qeyrət, namus, ar sözləri yazılmış dörd boru Kremlə uzanırdı. Risq edib həmin plokatın birini indiki Mərkəzi Bankın yerində o zaman Sov.İKP MK Siyasi Büro üzvlərinin iri portretləri asılan yerdə Siyasi Büro üzvü, sonradan Sov.İKP MK-nın Baş Katibi olmuş Yuri Vladimiroviç Andropovun portretinin aşağısına yapışdırıb, tez də gözdən itmişdim. Sabahı gün o zaman Azərbaycan Yazıçılar İttifaqının sədri və Pedaqoji Universitetin professoru İsmayıl Şıxlı məni dərsdən çağırıb təcili ağıla gəlməyən gizli bir yerə getməyi, heç yerə çıxmamağı tapşırdı. Sonradan məlum oldu ki, məhz Y.V. Andropovun portretinə plokatın yapışdırılması ciddi rezonans doğurmuş və bunu edənin tapılması üçün Moskvadan xüsusi çekistlər göndərilmişdi. 1991-ci ildə Naxçıvanda görüşdüyüm zamanı məndən heç nə soruşmadan həmin hadisəni xatırladan Heydər Əliyev, İsmayıl Şıxlının məhz onun tapşırığı ilə məni evə qapatdırdığını bildirdi.

## Milli dönüş və özünə inam tariximiz

Azərbaycanda milli azadlıq mücahidləri, beynəlxalq terminlə desək, dissident hərəkatı zaman-zaman baş qaldırsa da, SSRİ DTK-sı hər dəfə onu beşiyindəcə boğmağa nail olurdu. Təbii ki, bu da yetkin, planlı, uzun müddətə hesablanmış formanın tapılmaması, mücahidlərin fərdi fəaliyyətə üstünlük verməsi ilə birbaşa bağlı idi. Bütün bunlar 1969-cu ilə kimi, Azərbaycan Sovet Sosialist Respublikasına SSRİ DTK-nın sıralarında çətin və genişmiqyaslı fəaliyyət yolu keçmiş, Genaral-Mayor Heydər Əliyevin rəhbər təyin edilməsinə kimi davam etdi.

Məhz 1969-cu ilə kimi Azərbaycan gənclərinin hərbi xidmət zamanı gerçək silahlı qüvvələrdə deyil, fəhlə batalyonlarında xidmətə göndərilməsi, hər məqamda Ermənistanın istək və arzularının reallaşmasına xidmət edən qərarların qəbul edilməsi, Azərbaycanda iri sənaye müəssisələrinin yaradılmaması, kənd təsərrüfatına və kənd əhalisinə diqqətin zəif olması, Azərbaycanın zəngin neft və qaz yataqlarının, eləcə də digər yeraltı sərvətlərinin talan edilməsi, baş qaldıran azərbaycanlı milli mücahidlərin dərhal təqiblərə məruz qalması ölkəmizdə yeni reallıqlara uyğun dəyişik milli mücadilə formasının yaradılması zərurəti doğurmuşdu. Xüsusi vurğulamaq lazımdır ki, 1941-45-ci illərdə faşizmə qarşı savaşda bütün Sovet Respublikaları arasında ən böyük fədakarlıq göstərən Sovet Azərbaycanının bu əməyinin qiymətləndirilməməsi də Sovetlər Birliyinin, Kremlin antitürk siyasi xəttinin bariz göstəricilərindən idi. 1948-51-ci illərdə Ermənistandan 200 minə yaxın azərbaycanlının zorla ata-baba yurdlarından çıxarılaraq Azərbaycanın ayrı-ayrı bölgələrində məskunlaşdırılması isə xalqımızın faşizmə qarşı savaşda göstərdiyi analoqu olmayan tarixi xidmətlərinə verilən dırnaqarası "mükafat" idi. 1950-ci, 1960-cı illərdə bir sıra mücahid hərəkatları formalaşsa da, hələ də tam yetkin, təşkilatlanmış mübarizə forması yaradılmadığından bu hərəkatlar da Sovet DTK-sının amansız hücumları ilə yatırılırdı.1956-cı il mayın 28-də Qız Qalasına Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını sancan, o zaman Azərbaycan Dövlət Teatr İnstitutunun rejissorluq fakültəsini bitirmiş, bir müddət Azərbaycan Dövlət Opera və Balet Teatrında rejissor işləmiş, sonradan Sovet rejiminə qarşı mübarizənin önündə gedən Cahid Hilaloğlunun və onun yaxın məsləkdaşı Çingiz Abdullayevin başçılığı ilə gerçəkləşən mücahidlər hərəkatını xatırlatmaq kifayətdir ki, həmin dövrdə imperiyanın qəddar anti-türk siyasətinə xalqımızın müqaviməti haqqında təsəvvürümüz yaransın. Ən diqqətçəkən məqam isə odur ki, 1956-cı ildə həbs edilən, Rusiyanın soyuq meşələrində illərlə olmazın əzablarını çəkən Cahid Hilaloğlu, məhz Heydər Əliyevin sayəsində vaxtından əvvəl sürgündən azad edilmiş, müxtəlif sahələrdə rejissorluq fəaliyyətini davam etdirmiş, sonradan C.Cabbarlı adına İrəvan Dövlət Dram Teatrında, 1971-ci ildən Azərbaycan Teatr İnstitutunun Tədris Teatrında, ən sonda isə ömrünün axırına kimi Ağdam rayonundakı Dövlət Dram Teatrında baş rejissor kimi fəaliyyət göstərmişdir. Sovet DTK-sının siyahısında ən arzuolunmaz millətçi mücahid kimi qeyd olunan bu insanın məhz Heydər Əliyevin dəstəyi ilə normal həyata dönə bilməsi faktdır və bunu Cahid Hilaloğlunun əziziəri də təsdiq edir. 1970-ci illərdə inqilabçı-şair Xəlil Rza Ulutürk müəllim işlədiyi Azərbaycan Dövlət Pedaqoji İnstitutunda auditoriyada "Kommunist rejiminin iribuynuzlu feodalları" ifadəsi işlətdiyinə görə DTK tərəfindən haqqında qaldırılan cinayət işinin məhz Heydər Əliyevin müdaxiləsi nəticəsində azad edilərək ev dustağı kimi cəzalandırılması, ev dustaqlığı dövründə iş yerindəki əmək haqqının tam məbləğinin hər ay evinə göndərilməsi, həmin il ADU-nun gənc müəllimi Əbülfəz Əliyevin(Elçibəyin) haqqında faktlara əsaslanmaqla qaldırılan cinayət işindəki üç maddədən ikisinin Heydər Əliyevin müdaxiləsi ilə çıxarılması, Asəf Kərimov, Rüstəm Vilayətzadə, Bəxtiyar Vahabzadə, Anar və digərləri ilə bağlı qaldırılan cinayət işlərinin reallaşmasının qarşısının müxtəlif üsullarla alınması tarixi həqiqətlərdir. Həmin illərdə ADPu-da dosent işləyən gənc tarixçi-alim Yaqub Mahmudovun "Öyrənilməmiş səhifələr" adlı kitabında Azərbaycan xalqının tarixən rus xalqından üstün təqdim edilməsinə görə işdən çıxarılması, doktorluq dissertasiyasının müdafiəsinə əngəl yaradılması, məhz Heydər Əliyevin göstərişi ilə Rəsul Rza tərəfindən Azərbaycan Sovet Ensiklopediyasında işə düzəlməsi, az sonra yenidən ADPU-dakı əvvəlki işinə qaytarılması və ardıcıl neçə il həmin Ali Məktəbin qəbul komissiyasının məsul katibi təyin edilməsi də danılmaz faktdır.

1969-cu ildən başlayaraq Heydər Əliyev milli ruhun artırılması istiqamətində dövlət səviyyəsində də fundamental tədbirlərin həyata keçirilməsində şəxsən təşəbbüs göstərir. Xüsusən, "Nəsimi", "Dəli Kür", "Dədə Qorqud", "Babək", "Nizami" , "Axırıncı aşırım" və digər milli ruhlu filmlərin çəkilişinin birbaşa təşəbbüsçüsü və himayədarı olması, "Ozan", "Bayatı", "Bulaq", "Savalan" və sair kimi milli ruh aşılayan verilişlərin dövlət televiziya və radio efirlərindən cəmiyyətə təqdim edilməsi, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində Cənubi Azərbaycan Redaksiyasının yaradılması, teatr səhnələrində milli ruhlu, o cümlədən Cənubi Azərbaycan mövzusunda tamaşalara imkan verilməsi, ədəbi aləmdə Cənub həsrəti mövzusunun önə çəkilməsi, Azərbaycan Yazıçılar İttifaqında Cənubi Azərbaycan Ədəbiyyatı Katibliyinin yaradılması və sadalamadığımız yüzlərlə digər məqamlar 1970-ci illərdə Azərbaycan xalqının milli ruhunun yüksəldilməsinə yönəlik dövlət səviyyəsində görülən əzəmətli işlərin yalnız kiçik bir qismidir. Azərbaycan dilinin qorunması və inkişafı ilə bağlı ardıcıl olaraq ciddi qərarların qəbul edilməsi nəticəsində, məhz 1970-ci illərdə xalqımızın milli varlığının inikası olan Ana dili özünün tarixdə ən böyük inkişaf yolunu keçdi.

1958-ci ildə Baş redaktoru olduğu "Şəki fəhləsi" qəzetində B.Vahabzadənin "Gülüstan" poemasını çap etdiyinə görə təqiblərə məruz qalan qəzetin baş redaktoru Məhiyəddin Abbasova 1971-ci ildə Azərbaycan SSR Əməkdar Jurnalisti adının verilməsi, 1968-ci ildə "Köklər, budaqlar" kitabında dərc olunan "Latın dili" şeirinə görə ev dustağı edilmiş Bəxtiyar Vahabzadənin bu dustaqlıqdan vaxtından əvvəl azad edilməsi və 1973-cü ildə şairin "Dan yeri" kitabında həmin şeirin yenidən çap olunması, bu kitaba görə isə B.Vahabzadənin SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə Oktyabr İnqilabı ordeni alması, eləcə də 1968-ci ildə Cənubi Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" şeirini televiziyada səsləndirdiyinə görə təqib olunaraq SSRİ DTK-sı tərəfindən həbs olunan Rüstəm Əliyevin məhz Heydər Əliyevin hakimiyyəti illərində azad edilməsi, on illər boyu "pantürkist" damğası ilə antisovet yazar kimi təqdim edilən Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad kimi qüdrətli qələm adamlarının üzərindən bu dırnaqarası "ləkə"nin götürülməsi, Hüseyn Cavidin nəşinin Sibir çöllərindən tapılıb Azərbaycana gətirilməsi, milli musiqi mədəniyyətimizin və ədəbiyyatımızın dünyada təbliğini gücləndirmək məqsədilə Müslüm Maqomayev, Rəşid Behbudov, Zeynəb Xanlarova, Lütfiyar İmanov, İsmayıl Osmanlı, İsmayıl Dağıstanlı, Mehdi Məmmədov və digər müqtədir sənət adamlarına, həmçinin Süleyman Rüstəm, Mirzə İbrahimov, Rəsul Rza, Süleyman Rəhimov, Əli Vəliyev, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Cabir Novruz kimi görkəmli ədəbi simalara SSRİ-nin ən ali mükafatlarının verilməsinin təşkili, bununla həmin insanların toxunulmazlığının təmin edilməsi,70-ci illərdə M.Şəhriyarın "Heydərbabaya salam" poemasından və şeirlərindən ibarət kitabın Xəlil Rzanın tərtibatı əsasında kütləvi tirajla çap olunması və bu kimi minlərlə digər faktlar Heydər Əliyevin, xalqın milli ruhunun artırılmasına dövlət səviyyəsində etdiyi tarixi xidmətlərin yalnız az bir qismidir. Ən böyük xidməti isə 1969-cu ilin oktyabrında milli mücadilənin təşkilatlanmış formasının yaradılmasına verdiyi dəstək və bu hərakatın fəallarının repressiyalardan qorunması idi.



## ÜÇLƏR HƏRƏKATI necə yarandı?

Üçlər Hərəkatı Azərbaycanın müstəqillik tarixində ən önəmli və ən möhtəşəm hadisələrdəndir. Sadəcə, bu hərəkatın xüsusi şriftlərlə yazılmış bütün sənədləri oxunduqdan dərhal sonra yandırılır, heç bir iz buraxılmırdı. Ona görə də hər hansı arxiv materialının əldə olması, de-fakto mümkün deyil. Lakin hərakatın bu gün də yaddaşlarda daşıyıcısı olan çox az sayda insanlar bu barədə danışmalı və Milli Azadlıq Hərəkatı tariximizin bu önəmli səhifəsinin unudulmasına imkan verməmelidir...

1969-cu ilin iyul ayında hakimiyyətə gələn Heydər Əliyev, bundan cəmi dörd ay sonra, həmin ilin oktyabr ayının 26-da, o zaman millətçi şair kimi SSRİ DTK-sı tərəfindən təqib edilən Bəxtiyar Vahabzadə və şairin ən yaxın dostu, həmin dövrdə elmi kəşfi ilə dünyanın diqqət mərkəzində olan Xudu Məmmədovu qəbul edir. Tam məxvi şəraitdə, açıq havada saatlarla davam edən həmin görüşün detalları haqqında danışmaq mümkün deyil. Lakin bildiyim iki məqamı söyləməyim kifayətdir ki, bu görüşün əsas qayəsi anlaşılsın. Bunlardan birincisi Bəxtiyar Vahabzadənin odlu-alovlu millətçi fikirlərini sonadək diqqətlə dinləyən Heydər Əliyevin ona, Sovet Hökumətinə qarşı belə danışmaqdansa, ağıllı-başlı təşkilatlanmış elə hərakat yaratmaq tövsiyə etməsidir ki, həmin təşkilatla xalqın milli ruhunu qaldırmaq mümkün olsun. Xudu Məmmədova müraciətlə, onun elmi sahəsi olan kristalloqrafiya qanunlarına uyğun, bölünərək çoxalan, lakin bunu görməyin mümkün olmadığı bir texnologiya ilə fəaliyyət göstərməyin gərəkli olduğu mesajını verir. İkinci, ən maraqlı məqam isə odur ki, həmin görüşdə Heydər Əliyev deyir: Siz elə hərəkət edin ki, bunun milli ruhun qaldırılmasına xeyri dəysin və mən sizləri qoruya bilim. Çünki yaxın gələcəkdə bu xalqın həm milli ruha, millətçi əhval-ruhiyyəyə, həm də onun sizlər kimi milli ruhlu aparıcı simalarına ehtiyacı olacaq. Daha, ən inanılmaz məqam isə ondan ibarətdir ki, Heydər Əliyev həmin görüşdə SSRİ-nin çökəcəyi dövrü də qeyd edib:1985-1990-cı illər!

Bu tarixi görüşdən bir gün sonra - 27 oktyabr 1969-cu ildə Xudu Məmmədovun evində Bəxtiyar Vahabzadə və həmin dövrdə gənc şərqşünas kimi tanınan, millətçi çıxışları ilə diqqət mərkəzində olan, Azərbaycan Dövlət Universitetinin müəllimi, Xudu Məmmədovun qonşusu Əbülfəz Əliyev görüşürlər. Bu görüşdə Azərbaycanın müstəqilliyə doğru addımlarını qətiləşdirən, təşkilatlanmış gizli fəaliyyət göstərən qurum kimi xalqı milli mücadiləyə səfərbər edən "ÜÇLƏR HƏRƏKATI" yaradılır və Azərbaycanın müqtədir tarixi simaları bu hərəkat ətrafında birləşirlər.

Heydər Əliyevin tarixi xidmətləri sırasında Xəzərdəki karbohidrogen ehtiyatlarının və əlvan metallurgiya yataqlarının qorunması ilə bağlı atdığı cəsarətli addımlar da diqqəti çəkir. Neftin, qazın, eləcə də əlvan metallurgiyanın istehsalı və satışı birbaşa ittifaq tabeliyində olduğuna görə məhz Heydər Əliyev 1970-ci illərdə bu xəzinənin tükənməməsi, Müstəqil Azərbaycan üçün qorunub-saxlanması yollarını axtarır və tapır. Bu barədə əfsanəvi neft- qaz kəşfiyyatı mütəxəssisi Xoşbəxt Yusifzadənin çıxışlarını xatırlamaq kifayətdir...

*(Ardı növbəti sayda)*

***Təhmasib Novruzov,***
***Azadlıq Hərəkatçıları İctimai Birliyinin sədri, yazıçı-publisist***

# Sağlam gəncliyin yetişməsi hər bir cəmiyyət üçün önəmlidir!

## Xəzər rayonunda narkomaniya ilə mübarizəyə həsr olunmuş tədbir keçirilib

***Fevralın 17-də Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2023-cü il üçün birgə Tədbirlər Planına uyğun olaraq YAP Mərkəzi Aparatının və Xəzər rayon təşkilatının birgə təşkilatçılığı ilə interaktiv təlim keçirilib.***







Əvvəlcə ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin, eləcə də qardaş Türkiyədə təbii fəlakət nəticəsində həlak olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Xəzər Gənclər Evində keçirilən tədbiri giriş sözü ilə açan YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov narkomaniyaya qarşı mübarizə istiqamətində maarifləndirmə işlərinin əhəmiyyətindən bəhs edib.

YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva bildirib ki, narkomaniya ilə mübarizə və onun profilaktikası sağlam gəncliyin yetişməsində ən vacib amillərdən biridir. Gənclərin bu kimi zərərli vərdişlərdən uzaq olması üçün maarifləndirmə tədbirləri davamlı xarakter daşımalıdır. Prezident İlham Əliyevin Sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunduğunu xatırladan Z.Musayeva Tədbirlər Planına uyğun olaraq "Heydər Əliyev İli" çərçivəsində birgə tədbirlərin keçirilməsinin nəzərdə tutulduğunu deyib. O qeyd edib ki, ulu öndər Heydər Əliyev Azərbaycan gəncliyini hər zaman güclü və sağlam görmək istəyirdi. Ulu Öndərin bu istiqamətdə müəyyənləşdirdiyi siyasəti hazırda Prezident İlham Əliyev uğurla davam etdirir.

Xəzər rayon İcra Hakimiyyəti başçısının birinci müavini Elşən Qurbanov narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın müasir dünyanı ciddi narahat edən problemlərdən biri olmaqla bərabər, insanların sağlamlığına təhlükə yaradan, cəmiyyətin mənəvi-əxlaqi dəyərlərinə zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən amil olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, Prezident İlham Əliyev tərəfindən təsdiqlənən "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" bu problemlə sistemli mübarizə aparılması baxımından mühüm əhəmiyyət daşıyır. Çıxış edən "Narkotizmlə mübarizə" İctimai Birliyinin sədri Kənan Qubadzadə bildirib ki, sağlam gəncliyin yetişməsi hər bir cəmiyyət üçün önəmlidir. Ona görə də narkomaniyaya qarşı mübarizədə hər kəs fəal olmalıdır.

"Azərbaycan Televiziyası və Radio Verilişləri" QSC-nin əməkdaşı Ruslan Həsənli isə çıxışında narkomaniyaya qarşı mübarizədə birlik və həmrəyliyin önəmindən danışıb. Onun fikrincə, əgər bu məsələdə cəmiyyət yüksək fəallıq nümayiş etdirərsə, nəticə daha uğurlu olacaq.

Səhiyyə Nazirliyi Respublika Narkoloji Mərkəzinin həkim-narkoloqu Rövşən Kərimli narkotik maddələrin insan sağlamlığı üçün törətdiyi fəsadlardan ətraflı bəhs edib. O, gəncləri bu bəladan uzaq olmağa çağırıb.

Sonra Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun məsul əməkdaşı Şahin İsmayılov gənclərin bu zərərli vərdişdən uzaq olmasının vacibliyindən danışıb. O qeyd edib ki, dövlət tərəfindən bu sahədə zəruri tədbirlər həyata keçirilir.

Xəzər rayon Polis İdarəsinin narkotiklərlə mübarizə bölməsinin baş əməliyyat müvəkkili, baş leytenant Həsən Əliyev isə rayon üzrə narkomaniyaya qarşı mübarizə tədbirlərindən danışıb. Xəzər rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Əliyev çıxışında gənclərin bu zərərli vərdişin qarşısının alınmasında rolundan bəhs edib.

Sonra Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Narkotizmlə mübarizə" İctimai Birliyinin hazırladığı "Ağ ölüm-narkotikə "YOX" deyək!" qısametrajlı film nümayiş olunub. Eləcə də tədbirdə narkomaniyaya qarşı mübarizəyə həsr olunmuş bukletlər paylanılıb. Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.



# Böyük Qayıdışın ilk ünvanı olan Ağalıda YAP-ın ərazi partiya təşkilatı yaradılıb

***Yeni Azərbaycan Partiyası (YAP) Zəngilan rayon təşkilatının "Ağalı kənd" ünvanı üzrə yeni ərazi partiya təşkilatı təsis edilib. Əvvəlcə Zəngilan rayonundakı Şəhidlər xiyabanı və ümummilli lider Heydər Əliyevin büstü ziyarət olunub.***





Tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin, eləcə də qardaş Türkiyədə təbii fəlakət nəticəsində həlak olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin məsul əməkdaşı Aqil Qurbanov ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətlərindən, həmçinin YAP-ın müasir müstəqil Azərbaycanın inkişafında müstəsna rolundan bəhs edib. Bildirib ki, tarixi Zəfərimiz harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlını qürurlandırır və hazırda işğaldan azad edilmiş torpaqlarımızda aparılan geniş bərpa-quruculuq işlərində hər bir partiya üzvünü yaxından iştirak etməyə çağırıq.

YAP Zəngilan rayon təşkilatının sədri Natiq Quluzadə vurğulayıb ki, Vətən müharibəsində qazanılmış şanlı Zəfərdən sonra doğma torpaqlarımıza möhtəşəm Qayıdışın ilk ünvanı Zəngilan rayonu Ağalı kəndi, Böyük Qayıdış sevincini ilk yaşayanlar Ağalı kəndinin sakinləri oldular. Azərbaycan xalqı olaraq, tariximizin ən əlamətdar, möhtəşəm, qürurlu anlarını yaşayırıq. O vurğulayıb ki, Vətən torpaqlarımız bütövlüyünə qovuşdu, yüzminlərlə soydaşımızın həsrətinə son qoyuldu: "Tarixi Zəfərimizə yol açan uğurlarımızda Yeni Azərbaycan Partiyasının mühüm rolu var. Xalqın istəyi, zamanın tələbi ilə yaranan Yeni Azərbaycan Partiyası, Ümummilli Liderin qeyd etdiyi kimi, dünənin, bu günün və gələcəyin partiyasıdır. Bütün sınaqlardan şərəflə çıxan partiya tarixə adını qələbələr, zəfərlər partiyası kimi həkk edib. Ötən müddət ərzində Yeni Azərbaycan Partiyasının keçirdiyi qurultaylarda qəbul etdiyi tarixi qərarların Azərbaycanın uğurlu inkişafının təmin olunmasında böyük rolu olub. Bu gün hər bir Azərbaycan vətəndaşı, partiyanın hər bir üzvü Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan Zəfərimizdən qürur duyur".

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Elmar Məmmədov çıxışında Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, keçdiyi zəngin və şərəfli yoldan bəhs edib. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Yeni Azərbaycan Partiyasının bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atdığı, ölkəmizin inkişafına layiqli töhfələr verdiyi vurğulanıb. O, möhtəşəm uğurlarımızın zirvəsində tarixi Zəfərimizin dayandığını diqqətə çatdırıb.

Zəngilan Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Möhübbət Səmədov və Ağalı kənd tam orta məktəbin direktoru Nərmin Həsənova qeyd ediblər ki, Vətən müharibəsində qazanılmış Zəfər ulu öndər Heydər Əliyevin uğurlu siyasətinin Prezident İlham Əliyev tərəfindən inamla və qətiyyətlə davam etdirilməsinin nəticəsidir. Sonda partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi və hədiyyələr təqdim olunub.

# Şabranda gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər







“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi, yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. 2023-cü il fevralın 17-də YAP Şabran rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Daha sonra Heydər Əliyev Mərkəzinin konfrans zalında Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib. Sonda YAP sıralarına yeni qoşulmuş gənclərə partiyaya üzvlük vəsiqələri təqdim olunub.

# Yüksək məhsul almaq üçün torpağa hansı gübrə verilməlidir?

“Yüksək məhsul almağın mühüm elementlərindən biri düzgün gübrələmə məsələsidir. Gübrələmə məsələsində torpağa hansı gübrənin verilməsini xüsusi nəzərə almalıyıq. Çünki gübrələmədə əsas 4 qaydadan biri gübrə növünün düzgün müəyyənləşdirilməsidir. Əgər bitkinin azota ehtiyacı varsa, ona fosfor, kalium və digər qida maddələrinin verilməsinin əhəmiyyəti yoxdur”. Bu sözləri SİA-ya açıqlamasında Aqrar Xidmətlər Agentliyində müdir müavini Fikrət Feyziyev deyib.

Onun sözlərinə görə, bir qida elementi digərini heç cür əvəz edə bilmir: “Çünki bitki orqanizmdir və onun inkişafı üçün ehtiyacı olan qida elementini müəyyən etmək lazımdır. Əlavə qida maddələrinin verilməsi torpağı yükləmək deməkdir. Həmin gübrələrin ətraf-mühitə də təsiri var”.



F.Feyziyev sözlərinə davam edərək bildirib ki, bitkinin ehtiyaclarını müəyyənləşdirməyin bir yolu da analizlərdən keçir: “Təbii ki, təcrübəli fermerlər vizual müşahidələrlə qida çatışmazlığını müəyyən qədər anlaya bilərlər. Amma bunun tam elmi yolu həmin torpaqların analiz olunaraq müəyyənləşdirilməsidir. Gübrə növü və miqdarı aqrar kimyəvi analizlərlə müəyyən edilir. Bu analizlər nəticəsində bilmək olar ki, torpağın hansı gübrəyə nə qədər ehtiyacı var. Yalnız bundan sonra gübrələmə proqramı tətbiq olunmalıdır. Növbəti mərhələlərdə isə bitki toxumaları, konkret desək, yarpaq analizləri ilə nöqsanlar müəyyənləşdirilib, öncəki doza korrektə edilə bilər”.

***Ləman Əlizadə***



Mətanət Məmmədova

# Müharibə + zəlzələ = nəticə

***Türkiyədə fevralın 6-da baş verən zəlzələdə həlak olan tələbələrimizdən biri-Gəncə şəhərindən olan Şahin Vəliyev haqqında dünən oxuduğum bir xəbər, sözün həqiqi mənasında, ürəyimi çox göynəltdi. Göz yaşlarımı saxlaya bilmədim. Sonra bu həssas duyğularımın yerini qəzəb dolu hisslər əvəzlədi. Başladım öz-özümə danışmağa: necə olub ki, indiyə qədər bu ailəyə bir ev çox görülüb?***

İkinci Vətən Müharibəsindən iki ildən artıq zaman keçir. 2020-ci il oktyabr ayının 17-də ermənilərin Gəncəyə atdığı raket onlarla gəncəli kimi, Vəliyevlər ailəsinin də evini dağıtmışdı. Lakin o vaxt müharibə bölgəsindən çox uzaqlarda yerləşən ərazilərimizə ermənilərin tez-tez raket zərbələri nəticəsində evləri, həyətləri, əkin sahələri dağılan soydaşlarımız kimi, gəncəlilər də bütün bunları düşmənin nadanlığı, vəhşiliyi kimi qarşılayıb, müharibə gedən ölkədə bunları təbii hesab etmişdilər. Dağılan, tar-mar olan evləri, həyətləri, əkin sahələri üçün alınlarını belə qırışdırmayan bu insanlar “Ta ki Vətən sağ olsun, torpaqlarımız geri qaytarılsın, ərazi bütövlüyümüz bərpa olunsun”,- demişdilər. Çünki onlar çox yaxşı bilirdilər və dəfələrlə də görmüşdülər ki, ölkəmizin rəhbəri bu cür hadisələr nəticəsində evlərini itirən insanların hər birinin evini əvvəlkindən də gözəl vəziyyətdə onlara qaytarıb.

Dünən Şahin Vəliyevin evinin iki ildən artıq vaxt keçməsinə baxmayaraq hələ də verilməməsi, onların kirayədə yaşaması, Şahinin evi olmaması səbəbindən tətillərdə Gəncəyə gəlməməsi, Gəncə Şəhər İcra Hakimiyyətindən verilən məlumata əsasən, onların kirayə pulunun ödənilməsi xəbərini oxuyanda, belə qənaətə gəldim ki, bəzi icra hakimiyyətləri hələ də vəzifələrinin öhdəsindən yetərincə gələ bilmirlər. Belə çıxır ki, ölkədə bütün şəhid ailələrinin, evlərini müharibədə itirmiş insanların evlə təminatını tək ölkəmizin başçısı diqqətdə saxlamalıdır? Bəs yerlərdəki icra hakimiyyətləri və digər aid qurumların vəzifəsi nədən ibarətdir. Yəni onların evini müharibə səbəbindən itirmiş vətəndaşı evlə təmin etməsi üçün iki ildən də artıq zaman lazımdır?

Həm də Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən vətəndaşa nə qədər kirayə pulu ödənilirmiş? 250 manat. Gəncədə 250 manata olan evlərin hansı şəraitdə olacağını bu məbləğ o qədər açıq şəkildə ortaya qoyur ki, ta bunun izaha belə ehtiyacı yoxdur.

Dövlətimizin başçısı doğum günlərində, əlamətdar və bayram günlərində şəhid, qazi ailələri ilə birlikdə olursa, bu ailələrə hədiyyə etdiyi mənzillərdə onlarla süfrə arxasında əyləşib söhbət edirsə, problemləri ilə maraqlanırsa, aid qurumların bu kimi hərəkətləri anlaşılmazdır. Və Gəncəyə atılan raket nəticəsində dinc əhalinin düşdüyü vəziyyətdən iki ildən artıq zaman ötməsinə baxmayaraq onların ev məsələsinin həllini tapa bilməməsi ortaya xeyli suallar səpələyir.

Bəlkə də Türkiyədə zəlzələ baş verməsəydi, həmin zəlzələdə Malatya şəhərindəki İnönü Universitetində təhsil alan dörd tələbəmiz həlak olmasaydı, hələ də 44 günlük müharibə zamanı evlərini itirmiş gəncəlilərin də bu problemi gizli olaraq qalacaqdı.

Xəbərdə oxuduğumuz cümlələrə bir daha nəzər salaq: Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən məsələ ilə bağlı bildirilib ki, qeyd edilən ünvanda zərər görmüş fərdi yaşayış evinə keçirilmiş baxış zamanı dəymiş ziyan müvafiq qaydada qiymətləndirilib və tikiləcək evlərin siyahısına daxil edilib: “Lakin evlərin planlaşdırılması zamanı təklif edilmiş layihəyə vətəndaş əvvəlcə razılıq versə də, sonra tikinti işlərinin dayandırılmasını və layihənin dəyişdirilməsini tələb edib. Bu səbəbdən yenidən individual tikinti layihəsi hazırlanıb və inşaat işlərinə başlanılıb. Qeyd edək ki, tikinti prosesi zamanı vətəndaşın həyətində mövcud olmuş yardımçı tikilinin yaşayış evi kimi layihələndirilməsi tələbi də inşaat işlərinin yubanması ilə nəticələnib. Hazırda işlərin böyük bir hissəsi yerinə yetirilib, evin içərisində tamamlama işləri gedir və qısa müddətdə vətəndaşa təhvil verilməsi planlaşdırılır.

Bu kimi açıqlamalar düşünürəm ki, heç də çıxış yolu deyil. Təbii ki, məsələ ilə bağlı hansısa bir quruma müraciət olunanda özünü vəziyyətdən çıxarmaq və özünümüdafiə olaraq bu kimi və buna oxşar cümlələr qurub danışacaqdır.

Lakin görünən odur ki, müharibədən iki ildən artıq zaman keçib, lakin hələlik haqqında məlumatımız olan bu ailə kirayədə yaşayır. Nə üçün?

Deməli, yaşadığımız 44 günlük Vətən müharibəsi və Türkiyədə baş verən zəlzələ xeyli məqamları ortaya çıxardı. Bu bir-birinin ardınca baş verən iki hadisə- müharibə+zəlzələ onunla nəticələndi ki, yerlərdə dövlətimizin başçısının etimadını yetərli şəkildə doğrultmayan məmurların olduğunu gördük...

# Prezident İlham Əliyevin uğurlu xarici siyasət konsepsiyası



Muxtar NAĞIYEV,
YAP Səbail rayon təşkilatının sədri

### Bu siyasətin artan xətlə inkişaf etməsi ölkəmizin dünyadakı mövqeyinin nə qədər möhkəm əsaslara söykəndiyini kifayət qədər sübuta yetirməkdədir

Azərbaycan Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin və mürəkkəb geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Eyni zamanda, Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş xarici siyasəti ilə həm inkişaf edir, iqtisadi sistemini təkmilləşdirir, həm də regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Məhz bu baxımdan, Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır.

Qeyd edilənlərlə yanaşı, Azərbaycan dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktik fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir. Xüsusilə, 44 günlük Vətən müharibəsində əldə edilən Zəfərdən sonra ölkəmiz yalnız Cənubi Qafqazda erməni işğalı nəticəsində yaranmış stereotipləri kənarlaşdırmadı, həm də yeni situasiyanın yaranmasında nəhəng addım atmış oldu.

### Azərbaycan paralel olaraq müxtəlif siyasi-iqtisadi layihələrin ərsəyə gəlməsi yönündə mühüm aktor kimi tanınır, təşəbbüskar olaraq dəyərləndirilir

Təbii ki, bütün bu uğurların təməlində dayanan əsas reallıq Prezident İlham Əliyevin müəyyənləşdirdiyi xarici siyasət konsepsiyası dayanır. Bu gün dünyanın bütün qütblərində özünəməxsus yer tutan Azərbaycan paralel olaraq müxtəlif siyasi-iqtisadi layihələrin ərsəyə gəlməsi yönündə mühüm aktor kimi tanınır, təşəbbüskar olaraq diyərləndirilir. Belə bir məqamda biz dövlət başçısının son vaxtlar reallaşdırdığı xarici səfərləri kontekstinə də diqqət yetirməliyik. Bellə mühüm səfərlərdən biri də dost Macarıstana olundu. Bildiyimiz kimi, Macarıstan həm də Türk dünyasının qədim çağlarının əsrarəngizliyini əks etdirən Avropa ölkəsidir. Tarixi eposlara söykənən bu ölkənin türkdilli dövlətlərlə əlaqələrinin də özünəməxsus yeri var. Həmin ölkələrdən biri də Azərbaycandır.

### Macarıstanın Baş naziri Viktor Orban: "Azərbaycan hər zaman bizim dostumuz olub, indi isə o, artıq bütün Avropa üçün strateji tərəfdaş olan ölkədir"

Əbəs deyil ki, səfər çərçivəsində Macarıstanın Baş naziri Viktor Orban Prezident İlham Əliyevlə keçirdiyi mətbuat konfransında bir sıra mühüm məqamlara toxundu. O qeyd etdi ki, ölkələr arasında əsasən strateji məsələlər barədə fikir mübadilələri aparılıb. Eyni zamanda, enerji təhlükəsizliyi məsələsində Azərbaycanın rolu yüksək qiymətləndirilib: "Brüssel tərəfindən tətbiq edilmiş sanksiyalar Macarıstan üçün olduqca təhlükəli bir vəziyyət yaradıb, bizim enerji təhlükəsizliyimiz, Avropanın enerji təhlükəsizliyi həssas məqama qədəm qoyub. Burada yaranan bu şərait Azərbaycanın əhəmiyyətini dərhal artırdı. Bu əhəmiyyət bir növ sıçrayış etdi. Azərbaycan hər zaman bizim dostumuz olub, indi isə o, artıq bütün Avropa üçün strateji tərəfdaş olan ölkədir. Bunu bu gün Avropada hər kəs anlayır ki, bizim bu vəziyyətə olan cavabımız şaxələndirmədir. Müxtəlif mənbələrdən maksimal dərəcədə nəql edilə biləcək həcmdən söhbət gedir".

Azərbaycanın yalnız Macarıstan üçün deyil, həm də Avropa üçün etibarlı tərəfdaş olması da bu məqamda özünü kifayət qədər təsdiq edir. Yalnız neft və qaz deyil, həm də elektrik enerjisinin nəqli məsələsi bu qitə üçün xüsusi önəm kəsb etməkdədir. Macarıstanlı Baş nazir bu mühüm məqamı da xüsusilə vurğulayıb: "Biz Azərbaycanda istehsal edilən elektrik enerjisini Avropaya gətirəcəyik. Xəritəyə baxsanız görərsiniz ki, həm təbii qaz, həm də elektrik enerjisi baxımından Azərbaycandan gələn bu enerji həcmləri Macarıstandan keçəcək. Ona görə də Macarıstan da bu məsələdə uduşlu vəziyyətdə olmaq arzusundadır. Həmçinin nəqliyyat marşrutu üzərində yerləşdiyimiz üçün Macarıstanın da rolu artacaqdır".

Bəli, isti dostluq münasibətlərinin həm də strateji cəhətdən münbitləşməsi hər iki ölkə üçün olduqca mühüm amillərdəndir və Azərbaycanın istər Avropa məkanında, istərsə də Avrasiya regionunda artan rolu da bu gerçəkliyi kifayət qədər ehtiva etməkdədir.

### Azərbaycan Prezidenti İlham Əliyev: "Təbii ki, enerji sahəsi indi dünya və Avropa gündəliyini zəbt etdiyi üçün əsas rol oynayır"

Prezident İlham Əliyev Macarıstana rəsmi səfəri zamanı həmin faktları dərindən şərh etdi, eyni zamanda, qarşıda dayanan plan və təşəbbüslər barədə də tezislər irəli sürdü: "Bizi dostluq əlaqələri bağlayır. Ölkələrimiz arasındakı dostluq əlaqələri həm ölkələrimiz üçün, eyni zamanda, Avrasiya qitəsi üçün də çox böyük önəm daşıyır. Bu gün imzalanan strateji tərəfdaşlığın dərinləşməsinə dair Birgə Bəyannamə bir daha bizim strateji tərəfdaşlığımızı təsdiqləyir. Bu, strateji tərəfdaşlığa dair imzalanmış ikinci sənəddir və bir daha onu göstərir ki, həqiqətən Macarıstan və Azərbaycan dost və strateji tərəfdaşdırlar".

Dövlətimizin başçısı onu da vurğulayıb ki, Yaxın keçmişdə aşkarlanan böyük yaşıl enerji potensialı da Azərbaycanın önəmini daha da artırır və yaşıl enerji ilə bağlı olan və artıq icra olunan layihələr ölkəmizi Avropa üçün daha da yaxın edəcək. Bu baxımdan, Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanla Macarıstanın əməkdaşlığının çoxşaxəli mahiyyəti göz önündədir. Bu o deməkdir ki, Macarıstan həm də Azərbaycanın enerji resurslarının digər ölkələrə ötürülməsi baxımından önəmli məkan hesab edilir. "Təbii ki, enerji sahəsi indi dünya və Avropa gündəliyini zəbt etdiyi üçün əsas rol oynayır", deyə qeyd edən ölkə rəhbərimiz bu mənada xüsusilə vurğulayıb ki, iki ölkə arasındakı əməkdaşlığın başqa sahələri var və buna paralel olaraq əsas amil odur ki, Macarıstan və Azərbaycan iki dost və tərəfdaş ölkə kimi bundan sonra da həm ikitərəfli əməkdaşlığı dərinləşdirəcək, həm də təmsil olunduqları beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyi də birbirinə əsirgəməyəcək.

Bütün bunlar həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, Prezident İlham Əliyevin xarici səfərləri və həmin səfərlər çərçivəsində ona göstərilən özəl diqqət ilk növbədə Azərbaycanın dünyadakı artan nüfuzunun bariz göstəricisidir.

## "Qaradağlı faciəsində 118 nəfər əsir götürüldü"




***"Bu gün Qaradağlı faciəsindən 31 il ötür. Bu faciə ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmişdir. Düşünürəm ki, bu Xocalı soyqırımından sonra törədilmiş ən dəhşətli faciə idi. Qaradağlı faciəsi 1992-ci il fevralın 14-dən başlayaraq 17-ə qədər baş tutub". Bu sözləri SİA-ya açıqlamasında Tarix elmləri üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti Qafqaz Xalqları tarixi kafedrasının müəllimi Ülkər Məmmədzadə bildirib.***

Onun sözlərinə görə, 1992-ci ildən ermənilər bunu öz havadarlarının gücü ilə həyata keçirirdilər: "Fevralın 17-də Qaradağlı kəndi ermənilər tərəfindən işğal olundu və bu döyüşlər nəticəsində 118 nəfər əsir götürüldü və onların çoxu ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirildi. Bundan əlavə 90-a yaxın mülki şəxs də həyatını itirmişdir. Bu hadisələr bir daha ermənilərin vandallığını göstərdi. Qaradağlı faciəsinin qisası alınsa da, bu faciə Azərbaycan tarixinə qan yaddaşımız kimi həkk olunub".

### Davos İqtisadi Forumunda Azərbaycana olan maraq öz tükənməzliyini sübut etdi

Ötən ilin yanvarında Davos İqtisadi forumunda iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev bir sıra aparıcı Avropa ölkələrin başçıları, nüfuzlu şirkət və bank rəhbərləri, eləcə də dünya liderləri ilə ikitərəfli görüşlər keçirdi. Buna misal olaraq dövlət başçımızın Niderland Krallığının Baş naziri Mark Rutte ilə, Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviçlə, Avropa İttifaqının (Aİ) büdcə və administrasiya üzrə komissarı Yohannes Hanla, Dünya İqtisadi Forumunun sədri Klaus Şvabla, Monteneqronun Baş naziri Dritan Abazoviçlə, "Adani Group" şirkətinin təsisçisi və sədri Qautam Adani ilə, Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) birinci vitse-prezidenti Yurgen Riqterink ilə, Latviya Respublikasının Prezidenti Egils Levitslə, BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) icraçı direktoru xanım Maimuna Mohd Şərif ilə, Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə, "Carlsberg Group" şirkətinin prezidenti və baş icraçı direktoru Kes t`Hart ilə, "Signify" (əvvəlki adı "Philips Lighting") şirkətinin baş icraçı direktoru Erik Rondolat ilə, "Kromatix SA" şirkətinin baş icraçı direktoru Rafik Hanbali ilə və s. şəxslərlə görüşlərini göstərə bilərik. Və ən əsası, bu görüşlərin hər biri qarşı tərəflərin təşəbbüsləri ilə baş tutub ki, bu da dövlət başçımızın dünyadakı ali nüfuzunun isbatı və göstəricisi kimi qiymətləndirilir.

O cümlədən, Prezident İlham Əliyevin Çinin CGTN (China Global Television Network) televiziya kanalına müsahibəsində irəli sürdüyü fikirləri də özündə bir çox əhəmiyyətli məqamları əks etdirib.

### Aparılan genişmiqyaslı islahatlar kursu beynəlxalq aləmdə olduqca yüksək qiymətləndirilir

Nəticə olaraq biz bu gün biz böyük fəxr hissi ilə onu da vurğulaya bilərik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunda daha yüksək artımın təmin edilməsi, ixrac imkanlarının genişləndirilməsi, rəqabətqabiliyyətli istehsalın stimullaşdırılması, investisiyaların təşviqi, sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi və biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində aparılan genişmiqyaslı islahatlar kursu beynəlxalq aləmdə də olduqca yüksək qiymətləndirilir. Məsələyə bu xüsusda yanaşdıqda ABŞ-ın kifayət qədər nüfuzlu "İrs" Fondunun təqdim etdiyi dünyanın 180 ölkəsi üzrə "İqtisadi azadlıq indeksi"ndə Azərbaycan mövqeyini 16 pillə yaxşılaşdıraraq 44-cü yerə sahib olmuşdu. Azərbaycan dünyada "iqtisadi azadlıq" indeksini ən çox təkmilləşdirən 11 ölkə sırasındadır. Ölkəmiz bu uğuru ilk növbədə biznes azadlığı, investisiya azadlığı və fiskal sağlamlıq göstəricilərinə görə əldə etdiyi nailiyyətlərə görə qazanmışdır. Onu da xüsusi olaraq qeyd edək ki, Azərbaycan "iqtisadi azadlıq" indeksinə görə hətta Avropanın Polşa, Portuqaliya, İspaniya, Fransa və Belçika kimi ölkələrini belə arxada qoyaraq, qitənin 45 ölkəsi arasında 24-cü yerdə qərarlaşıb və yüksəliş də davam edir.

Beləliklə, faktlar da göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət konsepsiyası öz uğurlu nəticələrini verir və bu siyasətin artan xətlə inkişaf etməsi ölkəmizin dünyadakı mövqeyinin nə qədər möhkəm əsaslara söykəndiyini kifayət qədər sübuta yetirməkdədir.

*Səbinə Hüseynli*

TƏRCÜMƏ

# Əsrin fəlakətini yaşayan Türkiyədən duyğulu anlar







***Fevralın 6-da Türkiyənin mərkəzi Kahramanmaraş olan 10 şəhərində yaşanan 7,7 və 7,6 bal gücündə zəlzələ minlərlə insanın həyatını nöqtələdi. Minlərlə insanın sağlığını əlindən aldı. Minlərlə insan xəstəxanalarda ölüm-qalım savaşı edir. Minlərlə insan evsiz-eşiksiz qalaraq sığınacaqlara sığınıb. Minlərlə uşaq hələ də nə baş verdiyini dərk etməyərək sadəcə isti yuvasını, isti ana qucağını axtarır.***

Kahramanmaraş, Hatay, Adıyaman, Qaziantep, Osmaniye, Adana, Şanlıurfa, Malatya, Diyarbəkir, Kilis və Elazığda baş verən zəlzələdən 12 gün ötür. Bütün dünyanı heyrətə gətirən bu müdhiş hadisə hələ uzun illər danışılacaq. Çünki vurduğu yaraların, acıların unudulması üçün də uzun illər lazımdır. Zəlzələnin yaddaşlardan silinməyəcək duyğulu anlarından

### Toy günləri ölüm günləri oldu

Zəlzələ baş verən gecədən saatlar öncə Hatayda evlənən Elif və Halil İbrahim Aksoy cütlüyü İskəndərunda yaşadıqları evdə dağıntılar altında qalaraq həyatlarını itirib.

Bacısını itirən böyük qardaşı 3,5 aylıq qızına onun adını verib. Bacısı Elif Aksoyun toy gecəsi dünyasını dəyişdiyini böyük kədərlə bildirən mərhum gəlinin qardaşı Murat Bilge: "Həmin gecə bura qar yağmışdı... Bacım qayınanasıgildən gecə saat 3.30 radələrində İsgəndəruna getdi. Bacımı aparan dost deyir ki, ikinci mərtəbədəki evə girdik, 30-40 metr irəlilədik, qiyamət qopdu. O, binaların bir-bir uçduğunu gördüyünü söylədi".

Toy gecəsində həyatını itirən bəylə gəlindən geriyə qalan isə zəlzələdən saatlar əvvəl çəkilmiş fotoşəkillər və görüntülərdir. Görüntülərdə evli cütlüyün zala girərək rəqs etməsi əks olunub. Bilge ailəsinin fotoşəkili ağrıları iki qat artırdı. Fotodakı 6 nəfərdən 5-nin öldüyü, bir qızın isə yaralı olaraq sağ qaldığı öyrənilib.

### Adıyamanda dağılmış tövlənin dağıntıları altından qurtarılan inək

Episentri Kahramanmaraşın Pazarcık və Elbistan rayonları olan və 11 vilayətə təsir edən "əsrin fəlakəti" olaraq xarakterizə edilən 7,7 və 7,6 ballıq zəlzələlərdən sonra Adıyamanda bir çox tövlə yararsız hala düşüb.

Adıyamanın Dərdağan kəndində Birgül və Əziz Tuncayın altı tövləli evləri zəlzələ nəticəsində dağılıb. Zəlzələdən yara almadan xilas olan cütlüyün 5 inək, 15 keçi və 30 toyuqdan 3-ü dağıntılar altında ölüb.

Birgül Tuncay 11 gündür ilişib qaldığı yerdən çıxa bilməyən inəklərindən birini dağıntıların arasından keçərək yemləməyə çalışıb.



Birgül və Əziz Tuncay cütlüyü xilasetmə qruplarının uzun səylərindən sonra zəlzələdə dağılmış tövlələrinin dağıntıları arasında qalan inəklərini alıblar. Baytarlar yaralı inəyin müalicəsinə başlayıb.

"Bircan" adının verdiyi inəyini aldığı zaman duyğulu anlar yaşayan Birgül Tuncaya xilasedici qrup təsəlli verib.

Anadolu Agentliyinə (AA) dolanışıqlarının heyvandarlıq olduğunu izah edən Tuncay: 5 inək, 3 buzov vardı. İnəklərimdən biri ilə bir buzovu xilas etdim. Biri isə dağıntılar altında qaldı. Dağıntılardan keçdim,11 gün onu bəslədim. Onun xilasına heç bir ümidim yox idi. Xilasedənlər gəldi, inəyimi xilas etdi. Heyvanlarımı uşaqlarım kimi sevirəm. Südlərini sataraq dolanıram".

Xeyriyyə təşkilatları ailəni yemək və paltarla təmin edib.

### Zəlzələdə dağıntılar altından çıxarılan ana və körpəsi 8 gün sonra qovuşdu

Mərkəzi Kahramanmaraş olan şiddətli zəlzələlərin dağıntılara səbəb olduğu vilayətlərdən biri olan Qaziantepin Nurdağı rayonunda iki mərtəbəli bina uçub. Sözügedən binanın birinci mərtəbəsində yaşayan suriyalı Kinda İbrahim, həyat yoldaşı Əhməd və 7 aylıq körpəsi Mustafa Arac zəlzələdə uçan binanın altında qalıblar. Zəlzələ günü axtarış-xilasetmə qrupları tərəfindən dağıntılar altından çıxarılan körpəyə xəstəxanada tibbi yardım göstərilib.

Oğlundan 15 dəqiqə sonra xilas edilən ana Kinda İbrahim əri və qardaşının altında qaldığı dağıntıları tərk etməyib. Təxminən 8 gün sonra xəstəxana rəhbərliyinə müraciət edən ana övladına qovuşdu. Zəlzələdə ərini və qardaşını itirən Kinda İbrahim verdiyi açıqlamada xarabalıqlar arasında çox çətin anlar yaşadıqlarını və heç vaxt sağ çıxacaqlarını gözləmədiklərini söylədi.

Təxminən 6 saat dağıntılar altında qaldıqlarını ifadə edən Kinda, "Əvvəlcə körpəmi çölə çıxardılar. Sonra mənə çatdılar, amma ərim və qardaşım rəhmətə getdilər. Mustafanı çıxartdıqdan 15 dəqiqə sonra məni çıxardılar. Zəlzələ zamanı hər şey üstümüzə çökdü. Sağ çıxmaq ümidimiz yox idi. İçəridə çoxlu travmalar yaşadıq. Zəlzələ baş verəndə ən son yadıma düşən o oldu ki, uşağımı yatağıma götürüb gözləməyə başladım",- dedi. Zəlzələdə həyat yoldaşını və qardaşını itirən kədərli ananın övladını qucaqladığı anlar hər kəsi ağladıb.

### İki zəlzələ arasında həyat: Gölcük zəlzələsində doğuldu, Kahramanmaraş zəlzələsində həyatını itirdi

17 avqust 1999-cu ildə Gölcük zəlzələsində Qaziantepdə doğulan Osman Enes Baştürk Kahramanmaraşda baş verən fəlakətdə həyatını itirib. 3 gün əvvəl zəlzələdə yaxalandıqları evə köçən ailə sağ qalarkən, Osman Ənəs özünü qardaşına qarşı qalxan edib. Onunn 24 illik həyatı zəlzələ ilə başlayıb, növbəti zəlzələ ilə bitib.

Kahramanmaraşda 7,7 bal gücündə zəlzələdə qardaşını qorumağa çalışarkən yıxılan divarın altında həyatını itirən Osman Enesin həyat hekayəsini anası Asiya Baştürk danışıb. Kədərli ana bildirib ki, gecə saatlarında titrəyişlə oyanıb, ərini divara itələyib və uşaqlarının yanına getmək istəyərkən divar onun üstünə uçub.

Zəlzələ zamanı uşaqlarına yetişmək üçün qaçdığını, ancaq yetişə bilmədiyini ifadə edən Baştürk: "Osman güclüdür, dedim, qardaşını xilas edəcək. Oğlum qardaşını qorudu, amma özünü xilas edə bilmədi. Əlini çiyninə qoydu. Kiçik oğlum dağıntılar altından çıxdı, amma o, çıxa bilmədi"

Zəlzələdə xəsarət alan Emirhan Baştürk zəlzələ gecəsi qardaşı ilə eyni otaqda yatdığını bildirib. Çox qorxduğunu ifadə edən Baştürk o anları belə izah edib: "Zəlzələ olanda bir-birimizi qucaqladıq. Bu zaman 1-2 dəqiqə huşumu itirdim. Binanın uçma səsini eşitdim. Bina tamamilə uçdu. Qardaşım ölmüşdü. Atamın səsi çöldən gəlirdi, anamın səsi içəridən gəlirdi. Anama zəng etdim, o mənə cavab verdi. Anam məndən soruşdu ki, qardaşın necədir? Dedim ki, ondan heç bir səs gəlmir".

Ata Mehmet Baştürk isə zəlzələdə yaxalandıqları evə 3 gün əvvəl köçdüklərini ifadə edərək deyib: "Cümə günü getdik, şənbə, bazar günü çox yorulduq. Zəlzələ olan gecə saat 03:00 radələrində namaza qalxdım. Sonra zəlzələ oldu. Birdən bina uçdu. Öz imkanlarımla bayıra çıxdım. Üşüdüm. Sürücü gəldi, paltosunu aldım. Sonra qohumlar gəldi, həyat yoldaşımı və kiçik oğlumu xilas etdik. Onlar gəlməsəydi, ailəm öləcəkdi".

*Tərcümə-Mətanət Məmmədova*

SİYASİ RAKURS-ÖZƏL

# Molla rejimi getməlidir: geriyə yol yoxdur!



Təbriz isə yenidən inqilab paytaxtına çevrilib





Dünya ictimaiyyətinin əksəriyyəti elə düşünürdülər ki, ötən ilin 17 sentyabrından başlayan İran iğtişaşları sanki sakitləşib və Tehran rejimi həyata keçirdiyi dəhşətli repressiyaları, edam cəzaları ilə etirazçı xalq kütləsinin qiyamını yarıtmağa nail olub. Lakin bunun belə olmadığı növbəti dəfə sübuta yetirildi. Əslində, müəyyən sakitlik yaranmışdı, hətta həmin sakitlik iki həftədən çox müddətdə davam etdi. Polis və digər güc strukturları ilə ayrı-ayrı məhəlli qarşıdurmalar istisna olmaqla daha əvvəlki kütləvilik də hiss olunmurdu. Amma bunun müqabilində daha geniş və əhatəli üsyanlara hazırlıq prosesinin getməsi sirr olaraq saxlanılırdı. Artıq fevralın 15-dən başlayaraq etirazların ikinci fazaya və yeni mərhələyə start verməsi görünməkdədir.

**1979-cü ildə İranda baş qaldıran və "İslam inqilabı" olaraq adlandırılan üsyanlardan sonra hazırkı iğtişaşlar ölkədə yaşanan ən iri miqyaslı qiyam olaraq xarakterizə edilir**



Məsələn, "Assosiated Press" ona yaxın hüquq müdafiəsi təşkilatlara istinadən məlumat yaydı ki, fevralın 16-dan 17-ə keçən gecədən etirazçı xalq ayrı-ayrı qruplara bölünməklə İranın müxtəlif şəhərlərində molla rejimi əleyhinə şüarlar səsləndirib, eləcə də hökumətə aid binalarda yanğınlar törədib, ali dini rəhbərlərin portretlərinə, həmçinin şüarlarına od vurublar. Məhz bu faktlar da belə qənaətə gəlməyə əsas verir ki, xalqın rejimə qarşı qəzəbi soyumayıb, əksinə daha da qızışıb.

Artıq faktdır ki, hələ 1979-cü ildə İranda baş qaldıran və "İslam inqilabı" olaraq adlandırılan üsyanlardan sonra hazırkı iğtişaşlar ölkədə yaşanan ən iri miqyaslı qiyam olaraq xarakterizə edilir. Bunu hüquq-müdafiə təşkilatlarına aid sosial şəbəkə platformalarında yayılan görüntülərdən də görmək mümkündür. Həmin görüntülərdən də məlum olur ki, etirazçılar fevralın 16-17-dən başlayaraq Tehranda, Arazda, İsfahanda, Huzestan vilayətinin şəhərlərində küçələrə axışaraq güc strukturlarının qurduqları blokpostları dağıtmağa nail olublar.

**Etirazçılar "Diktatora ölüm!", "Rejimə ölüm!" şüarları ilə öz qətiyyətlərini nümayiş etdirməkdədirlər**

"Hengaw Organization for Human Rights" adlı təşkilatın yaydığı videodan isə məlum olub ki, Sənandacda yandırılan blokpostlardan sonra qurulan növbəti blokpostlar da xalq tərəfindən yandırılıb. Etirazçılar "Diktatora ölüm!", "Rejimə ölüm!" şüarları ilə öz qətiyyətlərini nümayiş etdirməkdədirlər.

Üsyanlar başlayan gündən hazırkı dövrə qədər üzə çıxan rəqəmlər də dəhşət saçır. Hüquq müdafiəçilərinin statistik məlumatlarına görə, Tehran rejimi 529 insanı qətlə yetirib, 19 700 nəfər isə zindanlara atılıb. Buraya edam cəzaları verilərək asılan insanları da əlavə etsək həmin statistikanın artdığını deyə bilərik.

Maraqlıdır ki, Tehran rejimi hadisələr başlayandan indiyə qədər qurbanların sayı barədə heç bir məlumat verməyib. Hansı ki, molla rejimi hökuməti ölənlərlə bağlı xəbərləri istisna etmirdi. O cümlədən, minlərlə həbslərin həyata keçirildiyini də boynundan atmırdı. O cümlədən, İranın ali dini rəhbəri Xameneyi də açıq şəkildə fətva irəli sürmüşdü ki, mövcud dövlət quruluşuna qarşı etiraz edənlərin öldürülməsi günah deyil və s. Bu səbəbdən, Tehranın güc strukturları ölənlərlə bağlı dəqiq rəqəm irəli sürməsə də onların olması haqqında yayılan məlumatları təkzib edə bilmirdi.

**Əbəs deyil ki, hadisələrin mərkəzində Təbriz şəhəri dayanıb və zamanında "İslam inqilabının" başladığı və şah rejimini yıxan həmin üsyanlar bu gün molla rejiminə qarşı qalxıb**

Nəticədə bu ölkədə baş qaldırmış etirazların daha geniş fazaya keçəcəyi prosesinə başlanılıb və bu proses Tehran rejiminin çöküşündən xəbər verir. Tehranın çöküşü isə regionda yeni reallıqların da yaranmasına – misal üçün, ayrı-ayrı azad, müstəqil dövlətlərin əmələ gəlməsinə səbəb ola bilər. Belə ki, bu ölkədə kifayət qədər etnik xalqlar, millətlər yaşayırlar. O cümlədən, nəzərə alsaq ki, bu gün həmin ölkənin əsas özəyini təşkil edən ən böyük kəsim məhz Cənubi Azərbaycan soydaşlarımızdır, bu zaman orada Milli Hökumətin qurulması mümkünlüyü get-gedə artmağa başlayır. O da əbəs deyil ki, hadisələrin mərkəzində Təbriz şəhəri dayanıb və zamanında "İslam inqilabının" başladığı və şah rejimini yıxan həmin üsyanlar bu gün molla rejiminə qarşı qalxıb. Bu səbəbdən, fars-molla rejimi Təbrizdən və Cənubi Azərbaycan faktorundan ciddi şəkildə çəkinir. Hər halda, proseslər də, mövcud gedişat da artıq geriyə yolun olmadığı anlamını daşımaqdadır.

***Rövşən RƏSULOV***

# Ekofəalların tələbləri nə zaman yerinə yetiriləcək?




"Xankəndi yolunda azərbaycanlı ekofəalların haqqa və hüquqa əsaslanan aksiyası əslində ilk gündən ciddi nəticələr doğurub. Əks halda Ermənistan və separatçılar, o cümlədən Fransa kimi təxribatçı imperialist güclər bu proses ətrafında böyük ajiotaj yaratmazdılar". Bu sözləri SİA-ya açıqlamasında deputat Bəhruz Məhərrəmov deyib.

Onun sözlərinə görə, digər tərəfdən, bu gün ekofəalların narahatlığını dinc formada ifadə etdikləri məsələlər bir neçə il öncə erməni ekofəalları tərəfindən də qabardılıb: "Azərbaycanın "Dəmirli" yatağının ətraf mühitə canlı aləmə və insanlara təhlükə yaradan formada istismarı ilə bağlı erməni təsisatları Ecolur və ANCA narahatlıq dolu hesabatlar yayımlayıblar və həmin sənədləri bu gün də internet resurslarından tapmaq mümkündür".

Deputat sözlərinə belə davam edib: "Bütün bunların fonunda qarşı tərəf bilir ki, Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin tələbləri beynəlxalq hüquq çərçivəsindədir, bu tələblər qarşısına sağlam əks arqument qoymaq mümkün deyil, məhz ona görə müxtəlif təxribatlara əl atırdılar. Hətta Fransanın və Avropa İttifaqının Parlamentləri bilərəkdən bu təxribatların aparıcı qüvvəsinə çevrilməkdən çəkinmədilər. Amma Azərbaycan dövlətinin və şəxsən cənab İlham Əliyevin bu məsələdə qətiyyət göstərməsi Ermənistanı da, havadarlarını da yerinə oturtdu.

Bu gün Xankəndi yolu humanitar məqsədlər üçün açıqdır, lakin məhz həmin yolla təbii sərvətlərin Ermənistana daşınmasının, yaxud separatçılara silah təmin edilməsinin qarşısı maksimal formada alınıb. Bu, özlüyündə ciddi nəticədir. Ekofəalların əsas hədəflərinə gəlincə, proseslər göstərir ki, zaman lehimizə işləyir".

***Ayşən Vəli***



**Rusiyalı ekspert: İrəvan istəyir ki, Vaşinqton və Paris Bakını məcbur etsin, onu belə şəraitə salsın ki, Qarabağda ermənilərə hansısa status versinlər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Aleksey Fenenko: "İrəvanın Bakı və Moskvaya qarşı mübarizəsi heç bir nəticə verməyəcək"

***Rusiya Beynəlxalq Əlaqələr Şurasının eksperti, politoloq Aleksey Fenenko Ermənistan-Azərbaycan nizamlanma prosesində və regionda baş verən son hadisələrlə bağlı "Moskva-Baku" portalına müsahibəsində maraqlı məqamlara toxunub. Politoloqun müsahibəsini oxucularımıza təqdim edirik.***

**- Ermənistan sülh müqaviləsinin yenilənmiş mətnini Azərbaycana təhvil verdi. O, Qarabağ ermənilərinin hüquqlarını və təhlükəsizliyini təmin etmək üçün beynəlxalq mexanizmin işlənib hazırlanması zərurətini müəyyən edir. Ermənistanın baş naziri bildirib ki, mətn ATƏT-in Minsk qrupunun həmsədrlərinə də göndərilib (bizim bildiyimiz kimi, bu qrup artıq yoxdur). Azərbaycan İrəvanın mexanizmlə bağlı təklifinə təbii ki, qəti imtina ilə cavab verdi. Və bildirdi ki, bu, göz qabağındadır: Ermənistan obyektiv olaraq obyektiv sülh istəmir, amma yenə də Azərbaycan ərazilərinə iddia edir.**

- Beynəlxalq mexanizm İrəvanın siyasi dilindən- Ermənistanın sanki hələ də mövcuddur kimi Minsk Qrupu adlandırmaqda davam etdiyi ATƏT-in Minsk Qrupunun keçmiş həmsədrləri kimi Fransa və ABŞ-ın iştirakını ifadə edir. Xatırladığımız kimi, Rusiya Xarici İşlər Nazirliyinin rəhbəri bunu dəfələrlə vurğulamışdı, çünki Vaşinqton və Paris bu formatda Moskva ilə qarşılıqlı əlaqəni davam etdirməkdən imtina ediblər. Bu o deməkdir ki, belə bir qrup artıq mövcud deyil. İrəvanın bu formatın guya mövcud olması barədə mütəmadi olaraq təkid etməsi, eləcə də onun vasitəsilə, mahiyyətcə Qarabağın statusu ilə bağlı müəyyən mexanizm təşkil etmək cəhdi Ermənistan tərəfindən Qərbi Ermənistanın işğalçı siyasətinə cəlb etmək cəhdlərinin ardıcıl davamından başqa bir şey deyil. İrəvan istəyir ki, Vaşinqton və Paris Bakını məcbur etsin, onu belə şəraitə salsın ki, Qarabağda ermənilərə hansısa status versinlər. Yəni Ermənistan Qərbi Ermənistan-Azərbaycan prosesinə həm diplomatik yolla- danışıqlar prosesi və beynəlxalq mexanizmlər vasitəsilə, həm də ərazidə- şərti Ermənistan-Azərbaycan sərhədinin bütün perimetri boyunca qondarma monitorinq missiyasının yaradılmasını xahiş etməklə cəlb edir. Bu, Qərb tərəfdaşları üçün də faydalıdır.

ATƏT ölkələrinin regiona cəlb olunmasından danışarkən, onların əksəriyyətinin NATO-ya üzv dövlətlər olduğunu xatırlamaq lazımdır. Paşinyan mümkün qədər Şimali Atlantika Alyansını Qafqaza cəlb etmək istəyir. İrəvan artıq Rusiyanın təhlükəsizlik zəmanətlərinə bel bağlamaq istəmir və fəal şəkildə Qərbdə ona alternativ axtarır, nəyin bahasına olursa-olsun Qərbi bu münaqişəyə cəlb etməyə çalışır. Axı Rusiya Qarabağ münaqişəsində və müharibədən sonrakı Ermənistan-Azərbaycan prosesində Ermənistanın tərəfini tutmayıb. Paşinyan qərbyönlü saatlı bombadır və Qərbin ona tapşırdığı tapşırığı yerinə yetirməyə başlayır ki, Cənubi Qafqazda ikinci cəbhə açmaq mümkün olsun.

**- Eyni zamanda, Paşinyan yenidən Azərbaycanla sülh imzalamağa hazır olduğunu bildirdi. Və paralel olaraq, Ermənistan rəhbərliyi- Paşinyan hökumətin iclasında və Ermənistan Xarici İşlər Nazirliyinin rəhbəri, yeri gəlmişkən, Avropa Şurasının 2023-2023-cü illər üçün Respublika üzrə Fəaliyyət Proqramının təqdimat mərasimində yenə Azərbaycandan yeni eskalasiya təhlükəsi, Qarabağ ermənilərinin "soyqırımı" haqqında tezislər və guya təbliğat aparmağa başladılar...**

- Yəni Ermənistan sabah da Azərbaycanla sülh imzalamağa hazırdır, amma öz şərtləri ilə. Və guya o, xəbərdarlıq edir ki, əgər bu baş verməsə, o zaman Ermənistan mümkün qədər kənara çəkiləcək və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması ilə bağlı danışıqlar prosesində çarxlara sözlər qoyacaq. Bu, Ermənistanın rəsmi mövqeyidir. Və yenə də- Rusiyadan getdikcə daha çox uzaqda. Ermənistanın Rusiyaya təzyiq xətti, Qarabağdakı vəziyyəti özü üçün daha yaxşı şəraitdə yenidən canlandırmaq cəhdi ilə şantaj yolu ilə davam edir və belə olmasa, Ermənistan (məhz onun elan etdiyi kimi) mandatı başa çatdıqdan sonra Rusiya sülhməramlılarının Qərbdən olanlarla dəyişdirilməsi ssenarisini həyata keçirəcək. Həm də gələcəkdə Rusiya hərbi bazasının öz ərazisindən çıxarılmasına çalışacaq.

Paşinyan Qarabağda qisas alacağına ümid edir, guya ki, Qərb dövlətləri Ermənistanın anti-Rusiya mövqeyi müqabilində 2020-ci ilin payızında İkinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra onun qisasını almağa kömək edəcək. Onu hərəkətə gətirən əsas motiv də budur. Bütün ümidləri ondan ibarətdir ki, ABŞ sabah Bakıya zəng edəcək və Azərbaycan birdən-birə Qarabağın hələ nəzarətində olmayan hissəsindən əl çəkəcək. Hesablama aparılır ki, ABŞ mənim müttəfiqim olsa, o zaman İrəvan Qarabağın qalıqlarını saxlaya biləcək.

Aydındır ki, Azərbaycan Qarabağın bir hissəsinin Ermənistanın nəzarətində qalmasına heç vaxt imkan verməyəcək. Amma Qərb diplomatları Paşinyanı hər cür həvəsləndirir, qeyri-müəyyən sözlər verirlər ki, o, getdikcə Rusiyadan uzaqlaşarsa, bu belə ola bilər. Daha bir məsələ odur ki, kritik anda onu tərk edəcəklər, amma hər şeyin onun üçün ən yaxşı şəkildə nəticələnəcəyinə ümidi qalır.



**- Biz görürük ki, getdikcə daha çox Rusiya hakimiyyətinin nümayəndələri Ermənistanı tənqid edirlər. Ən son nümunələrdən biri Dövlət Dumasının sədri Volodinin azərbaycanlı həmkarı ilə danışıqlar zamanı verdiyi açıqlamalardır. Demək olar ki, bu nonsensdir...**

- Ermənistan-Azərbaycan məsələsində Rusiya hakimiyyətinin siyasi yanaşmasının təkamülü göz qabağındadır. Bütün bunlar təbii ki, Rusiyanın müttəfiqi Ermənistanın nümayiş etdirdiyi qərbpərəst mövqe ilə bağlıdır: o, NATO təlimləri keçirir, KTMT-ni hər cür bloklayır, məhdud formada da olsa, Avropa İttifaqı ilə assosiasiya sazişi imzalayır. Açığı, Ermənistan Rusiyadan uzaqlaşmağa çalışır. Uğur qazanıb-qazanmayacağı sual altındadır, amma bunun əks istiqamətdə getməsi faktı çox mühüm göstəricidir. Bütün bunların fonunda Rusiya ilə Azərbaycan daha da yaxınlaşır.

Eyni zamanda, qorxuram ki, Ermənistanda Azərbaycanla yeni hərbi münaqişəni alovlandırmaq üçün hakimiyyətdə daha radikal revanşist rejimin yaradılmasına cəhd oluna bilər. Belə bir ssenarinin perspektivlərini qiymətləndirməmək olmaz. Və bu baş verərsə, bu, bütün Zaqafqaziya üçün problemə çevriləcək.




**- Rusiyayönlü qüvvələrin gəlməsi ehtimalı varmı?**

- Mən indi Ermənistanda bir dənə də olsun nüfuzlu rusiyapərəst qüvvə görmürəm. O qədər də rusiyapərəst olmayan, mötədil olan qüvvələr əvvəllər məğlub oldular.

**- Niyə Ermənistan, hətta Rusiya və Azərbaycan qarşısında şərt qoymağı mümkün hesab edir?**

- Bu, artıq milli psixologiya səviyyəsindədir: hamının Ermənistana borclu olduğu hissi. Bu, erməni mentalitetində var və daim Ermənistan siyasətində özünü göstərir. Həmişə olub. Həmişə şikayət siyasəti: Moskva bizim üçün bunu, bunu və bunu etmir, o zaman özümüzə başqa tərəfdaş taparıq. İndi Qərbin şıltaqlıqları gəlir: bunu, bunu, bunu və yalnız bundan sonra etməlisən... Bu, sizin ölkənizin rolunun və onun beynəlxalq münasibətlər sistemindəki yerinin tam adekvat qiymətləndirilməsi deyil. Bütün bunlar çox güman ki, Ermənistanın Qarabağda qalan mövqelərini itirməsi ilə yekunlaşacaq.

**- Ermənistan Xarici İşlər Nazirliyinin rəhbəri zəlzələ ərəfəsində Türkiyəyə səfər edib. Bildiyiniz kimi, Ermənistan Türkiyənin fəlakət zonasına humanitar yardım və xilasedicilərini göndərib. Türkiyədə tərəflər münasibətlərin normallaşmasına, sərhəddəki körpünün bərpasına doğru irəliləmək barədə razılığa gəliblər.**

- Nə qədər gözəl, doğru və yaxşı görünsə də, təəssüf ki, yenə də demək istəyirsən: "İnanmıram!" Amma bu siyasətdir. Düşünürəm ki, burada, başqa şeylərlə yanaşı, İrəvanın Türkiyə ilə Azərbaycan arasında gərginlik yaratmaq cəhdini görmək olar. Onlar artıq 2009-cu ildə Sürix protokolları vasitəsilə bunu etməyə çalışıblar. Sonra isə ümumilikdə uğur qazana bilmədilər. Onlar Azərbaycandan yan keçərək Türkiyə ilə münasibətləri yaxşılaşdırmaq istəyirlər. Türkiyə münasibətlərin qurulmasına qarşı deyil, Çavuşoğlu-Mirzoyan görüşün Türkiyədə keçdiyi yol daha çox Türkiyənin Ermənistana sülh əlini uzatmaq strategiyasıdır.

Ermənistan başqalarına təzyiq göstərəcək hansısa böyük himayədarına ümid edir. Bu, həm də Ermənistan siyasətinin ənənəsidir. Türkiyə Azərbaycanın maraqlarına zidd getməyəcək. Türkiyə münasibətləri normallaşdırmaq cəhdləri ilə bağlı ermənilərin bütün təminatlarının dəyərini bilir. Azərbaycanla razılaşmadan Türkiyə heç nə etməyəcək. Və İrəvan üçtərəfli bəyanatı yerinə yetirmədən heç bir iş görülməyəcək. Xatırlatmaq istəyirəm ki, erməni sərhədçilərinin Ermənistanın girişinə qoyduğu üzərində Ağrı dağı olan möhürlər Türkiyəyə qarşı açıq ərazi iddialarıdır.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
18 fevral
2023-cü il



# Uşaqlara təbii fəlakət haqqında necə danışaq?

***"İstənilən mövzu ilə əlaqədar uşaqlar sual verdikdə iki məqama diqqət etməliyik. Birincisi uşağın yaşı, ikincisi isə uşağın bu mövzu haqqında nə bilməsi xüsusilə vacibdir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Günel Talehqızı deyib.***

Onun sözlərinə görə, elə mövzular olur ki, valideyn bunu uşaqla danışmaqdan çəkinir: "Bu da xüsusilə ölüm və təbii fəlakət mövzusudur. Çünki bunlar uşağın kifayət qədər qorxu-həyəcan yaşadığı bir mövzulardır. Biz də əgər düzgün olmayan informasiyaları onlara verərsək, bu həmin qorxu və həyəcanı daha da artırır, yaxud uşaqda valideynə qarşı inamsızlıq yaranır. Məsələn, zəlzələni uşaq təbii şəkildə də yaşaya bilər. Yaxud da son günlər yaşanan hadisələri nəzərə alsaq, uşaq bunları televiziyada izləyir. Bizim bunu reaksiyasız qoymağımız, yaxud "Qorxma, narahat olma. Bizdə belə bir hadisə olmayacaq" kimi cavablandırmağımız düzgün deyil".

Psixoloq sözlərinə belə davam edib: "Biz ümumiyyətlə uşağın yaşını və onun bununla bağlı nə bildiyini nəzərə almalıyıq. Uşaqdan soruşuruq ki, "Sən bu haqda nələr bilirsən?", "Nə hiss edirsən?", "Bu haqda nə düşünürsən?". Öncə onun hiss və düşüncələrini öyrənməli, daha sonra özümüz sakit bir şəkildə cavablandırmalıyıq. Cavablandırmağımız mütləqdir.

Öncə uşağa rahat bir atmosfer yaratmalıyıq ki, uşaq da rahat olsun. Biz ona çox da coğrafi detallara girmədən təbii fəlakət haqqında məlumat verməliyik. Məsələn, "Bu təbiətin təbii hadisələrindən biridir", "Yer çox silkələnir", "Binalar tərpənir" və s.

Uşağın diqqətinə çatdırmalıyıq ki, "Anaata həmişə səninlə olur və səni necə qoruyacağını bilir. Biz buna hazırıq" və s. Yəni, uşağın əsas suallarına cavabımız onun güvəndə olması ilə bağlı olmalıdır. Əgər qorxusu və həyəcanı varsa, bununla bağlı valideyn bir qədər işləyə bilər. Əgər bu qorxu və həyəcan onun yuxularına, sosial həyatına təsir edibsə, o zaman psixoloqa müraciət etsinlər".

***A. Vəli***

# DİQQƏT: Azərbaycanda evlər bahalaşacaq?



**ƏMLAK ÜZRƏ EKSPERT AYDINLIQ GƏTİRDİ**

***"Azərbaycan əmlak bazarında hazırda qardaş ölkədə baş vermiş təbii fəlakətdən (zəlzələdən) dolayı nisbi sakitlik hökm sürür. Bu, həm qardaş ölkədə baş vermiş zəlzələnin olduqca dağıdıcı olması və zəlzələ zamanı həyatını itirmiş bacı-qardaşlarımızın bizə təsirindəndir". Bu sözləri SİA-ya açıqlamasında daşınmaz əmlak üzrə ekspert Anar Nəsirov deyib.***



Onun sözlərinə görə, Türkiyə bizə qardaş ölkə olduğu üçün orada həyatını itirmiş insanların hələ də acısını biz də yaşamaqdayıq: "Onun üçün bizim insanlar hələ də şokdan və aldığı psixoloji travmadan çıxmayıblar. Bu səbəbdən də hələ bazarda nisbi sakitlik ömür sürür. Qardaş ölkədə zəlzələ zamanı dağılmış o qədər hündür mərtəbəli binaların olması, alıcılarda bəzi qorxu və şübhələrə səbəb olub. Onlar düşünürlər ki, Allah uzaq etsin, əgər belə bir zəlzələ bizim ölkəmizdə olsa, onda hansı nəticələr verər və bizdə tikilən hündür mərtəbəli binalarda dağıntıya səbəb olar, yoxsa yox".

Anar Nəsirov sözlərinə belə davam edib: "İndi insanları düşündürən başlıca problem məhz budur. Düzdür, bizdə tikilmiş hündür mərtəbəli binaların keyfiyyəti olduqca yaxşıdır. Buna baxmayaraq, bu böyük yıxıcı və dağıdıcı zəlzələ insanlarda psixoloji bir travma yaratdığı üçün onlar ancaq bu barədə düşünürlər.

Hesab edirəm ki, qardaş ölkədə zəlzələnin baş verməsi bizim ölkəmizdə də yeni tikilmiş hündür mərtəbəli binaların satışına təsir edəcək. Çünki bu qorxu hələ insanlarda bir neçə il gedəcək və onlar yeni tikilmiş hündür mərtəbəli bina evlərinə marağı azaldacaq. Belə olan halda alıcılar daha çox həyət evlərinə və həyət evlərinin tikintisi üçün ayrılmış torpaq sahələrinə üstünlük verəcəklər. Nəticədə, həyət evlərinə tələbat artacaq və həyət evlərinin qiymətlərində artım qeydə alınacaq.

Mən demirəm ki, yeni tikilmiş bina evlərini alan olmayacaq, yox, onların da alıcıları olacaq. Sadəcə bəzi alıcılar həyət evlərinə üstünlük verəcəklər. Həyət evlərində hər il mart ayından sonra alıcılar çoxalır və əksər bağ və həyət evləri yay mövsümündə satıldığı üçün belə demək olar ki, gələn aydan həyət evlərində artım olacaq.

Mən gördüyüm qədərilə Azərbaycanda tikilən yeni binalar Türkiyə ilə müqayisədə olduqca keyfiyyətlidir. Əsas da son 6-7 ildə tikilən binalar olduqca keyfiyyətli tikilir. Mənim fikrimcə, bu il keçən illərlə müqayisədə yeni tikilən hündür mərtəbəli bina evlərinin qiymətləri az da olsa, aşağı enəcəyini güman edərəm. Həyət evlərinin qiyməti isə keçən illərlə müqayisədə yuxarı qalxacaq və keçən illərlə müqayisədə daha çox alıcısı olacaq. Bu halın baş verməsi insanların zəlzələ qorxusundan irəli gəlir.

Ən çox qiymət artımı isə kupçası (çıxarışı) olan həyət evlərində olacaq. Ən çox qiymətin artımı isə Bakı şəhərinə yaxın qəsəbələrdə tikilmiş villa və həyət evlərində olacaq. Ümid edirəm ki, əmlak bazarı yenə əvvəlki kimi öz çiçəkli vaxtlarına qayıdar.

Bütün Azərbaycan xalqı adından qardaş Türkiyədə zəlzələ zamanı həyatını itirmiş insanlara Allahdan rəhmət, yaralılara isə şəfalar diləyirəm. İnşallah bu qara buludlar başımızın üstündən gedər".

***Ayşən Vəli***

# Qadını öldürüb evini qarət etdilər



Lənkəranda qadını evində qətlə yetirib 5 min manatlıq qızılını oğurlayıblar. Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, hadisə fevralın 17-də saat 00:00 radələrində Lənkəran rayonu Yuxarınüvədi kəndində evlərin birində baş verib. 1952-ci il təvəllüdlü Zümrüd Əliyevanın bıçaq xəsarətlərindən ölməsi barədə polisə məlumat daxil olub.

DİN-in mətbuat xidmətindən bildirilib ki, ilkin araşdırmalarla cinayət əməlinin tamah məqsədilə törədilməsi müəyyən edilib. Evdən 5000 manat pul və qızıl zinət əşyaları talanıb. Polis və prokurorluq əməkdaşları tərəfindən cinayəti törətməkdə şübhəli bilinən şəxsin, yaxud şəxslərin müəyyən olunub saxlanılması istiqamətində əməliyyat-axtarış tədbirləri görülür.

# Bu gün yollar buz bağlayacaq

***Bu gün Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, arabir güclənən cənub küləyi əsəcək. Havanın temperaturu gecə 0-3º isti, gündüz 6-10º isti olacaq. Atmosfer təzyiqi 770 mm civə sütunundan 766 mm civə sütununa enəcək. Nisbi rütubət 60-70 % olacaq.***

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 9-14° isti, dağlarda gecə 10-15° şaxta, gündüz 0-5° şaxta olacaq. Gecə və səhər dağlıq rayonlarda yollar buz bağlayacaq.



**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**